## RUSİYA İLƏ AZƏRBAYCAN ARASINDA MÜNASİBƏTLƏR STRATEJİ TƏRƏFDAŞLARIN MÜNASİBƏTLƏRİDİR



Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri başlayıb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Soçi şəhərindəki "Boçarov Ruçey" dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub. Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb. Dövlət başçıları görüşdə çıxış ediblər. Rusiya Prezidenti Vladimir Putin deyib...

Bax səh. 3

## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVADAN



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ünvanına doğum günü münasibətilə Azərbaycanın və xarici ölkələrin tanınmış ictimai-siyasi, elm və təhsil xadimlərindən, ziyalılardan, sadə vətəndaşlardan çoxsaylı təbrik məktubları daxil olub. Təbrik məktublarında Birinci vitse-prezidentin müasir Azərbaycanın dövlət idarəçiliyində və inkişafında oynadığı yüksək rola böyük dəyər ifadə olunur, ölkəmizdə və onun hüdudlarından kənarda həyata keçirdiyi...

Bax səh. 4




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 04 sentyabr 2018-ci il, çərşənbə axşamı / № 165 (5292). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstana səfər edib






## Prezidentin iş günü

Prezident İlham Əliyev San-Marino Respublikasının Kapitan-Regentləri Stefano Palmieriyə və cənab Matteo Çiaççiyə təbrik məktubu göndərib.

❖ ❖ ❖

Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikasının Prezidenti Çan Day Kuanqa təbrik məktubu göndərib.

## Prezident İlham Əliyevin Soçi səfəri Rusiya mətbuatının diqqət mərkəzindədir




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri bu ölkənin aparıcı mətbuat orqanlarının diqqət mərkəzindədir...

Bax səh. 4

## Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və dostluq münasibətləri uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri yerli və beynəlxalq medianın diqqət mərkəzindədir. Ekspertlər bu səfərin iki ölkə arasında müxtəlif sahələri əhatə edən münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirirlər. Milli Məclisin deputatı, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun üzvü Sahibə Qafarova qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri tərəflər arasında da çoxşaxəli münasibətlərin inkişafı kontekstində xüsusi əhəmiyyət kəsb edir. Rusiya ilə Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələrinin bağladığını deyən millət vəkili əlavə edib ki, iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Rusiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın böyük potensialı olduğunu vurğulayan S.Qafarova diqqətə çatdırıb ki, ötən il ölkələr arasında əmtəə dövriyyəsi artıb və müxtəlif sahələri əhatə edən münasibətlər uğurla inkişaf edir: "Dövlətimizin başçısı mətbuat konfransı zamanı...

Bax səh. 6



## QIRĞIZISTANDA ÜÇÜNCÜ DÜNYA KÖÇƏRİ OYUNLARININ RƏSMİ AÇILIŞ MƏRASİMİ OLUB

Qırğızıstanın İssık-Kul gölünün sahilində yerləşən Baktuu-Dolonotu kəndindəki cıdır meydanında üçüncü Dünya Köçəri Oyunlarının rəsmi açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, mərasimdə Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Türkiyə Prezidenti...

Bax səh. 4

## REGİONLARDA ƏHALİNİN ELEKTRİK ENERJİSİ İLƏ TƏMİN OLUNMASI İŞLƏRİ UĞURLA DAVAM EDİR

Ölkəmizdə son 15 ildə həyata keçirilən siyasət, reallaşdırılan islahatlar bütün sahələrin inkişafını təmin edib. Heç şübhəsiz, bu fonda bölgələrin hərtərəfli inkişafı xüsusi olaraq önə çəkilmədir. Məlum olduğu kimi, qəbul edilmiş Dövlət proqramları sayəsində regionların inkişaf dinamikası əldə etməsi, abadlıq-quruculuq işlərinin görülməsi, yeni infrastrukturun qurulması bölgələrin simasını dəyişməkdədir. İnfrastrukturdan söz düşmüşkən vurğulayaq ki, bu gün ölkəmizdə bütün bölgələrdə fasiləsiz elektrik enerjisi ilə təminat vətəndaşların sosial rifahının yüksəldilməsində mühüm rola malikdir. Bu səbəbdəndir ki, regionlarımızda istər elektrik enerjisinin təminatı, istərsə də digər kommunikasiya və xidmət sahələrinin yüksək səviyyəyə çatması istiqamətində işlər davamlı xarakter daşıyır. Məhz həyata keçirilən siyasət nəticəsində bu gün bölgələrimizdə elektrik təminatı daha da təkmilləşir. Ölkədə bu istiqamətdə işlərin həyata keçirilməsi üçün dövlət tərəfindən yüksək maliyyə...

Bax səh. 8



## TEHRANDA OANA İCRAİYYƏ KOMİTƏSİNİN 43-CÜ İCLASININ RƏSMİ AÇILIŞI OLUB

Sentyabrın 3-də İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 43-cü iclasının rəsmi açılış mərasimi keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, iclasda İranın İRNA Dövlət Agentliyinin baş direktoru...

Bax səh. 4

## Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının İcraiyyə Komitəsinin üzvləri Tehranda toplaşıblar



Sentyabrın 2-də İran İslam Respublikasının paytaxtı Tehranda Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA)...

Bax səh. 4

### *Sevinc Fətəliyeva*: Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsinə töhfə verəcək



Azərbaycan Respublikasının Prezidenti...

Bax səh. 5

### *Dmitri Savelyev*: Rusiya ilə Azərbaycan arasında sarsılmaz münasibətlər bütün regionda təhlükəsizliyin əsasıdır



Sentyabrın 1-də Soçidə Rusiya və Azərbaycan prezidentlərinin görüşü ölkələrimiz arasında...

Bax səh. 5

### Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri ölkələrimizin münasibətlərini çox yüksək səviyyəyə çatdırdı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri...

Bax səh. 6

### Rusiyalı politoloq Rusiya və Azərbaycan prezidentlərinin görüşünü əlamətdar hesab edir



Rusiyanın tanınmış politoloqu Qriqori Trofimçuk Rusiya və Azərbaycan prezidentlərinin sentyabrın...

Bax səh. 5

# Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstana səfər edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitində iştirak etmək üçün sentyabrın 2-də Qırğız Respublikasına səfərə gəlib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Çolpon-Ata şəhərinin İssık-Kul beynəlxalq hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Qırğız Respublikası Baş nazirinin birinci müavini Kubatbek Boronov və İssık-Kul vilayətinin qubernatoru Akılbek Osmonaliyev qarşılayıblar.

Həmin gün Çolpon-Ata şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olub.

Prezidentlər görüşdə çıxış ediblər.

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov deyib: **"Hörmətli İlham Heydər oğlu.**

**Sizi və nümayəndə heyətinin üzvlərini Qırğızıstanın mirvarisi - İssık-Kulun sahilində səmimi qəlbdən salamlayıram. Mən şadam ki, bu gün bizə ölkələrimiz arasında əməkdaşlığın aktual məsələlərini müzakirə etmək üçün belə gözəl imkan yaranıb. Sizin bildiyiniz kimi, Qırğız Respublikası bizim ölkələrimiz arasında, qardaş Azərbaycan ilə qarşılıqlı etimad və hörmət əsasında dostluq münasibətlərinin gələcək inkişafına çox böyük önəm verir. Biz həmişə dostlarımızla məsələlərin bütün spektri üzrə məzmunlu söhbətə açığıq və hazırıq. Mən Sizi səmimi qəlbdən təbrik etmək istəyirəm. Bu il ölkəniz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd edir. Mən bu milli bayram münasibətilə Sizi təbrik edirəm və vaxt tapıb gəldiyinizə görə çox sağ olun".**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: **"Çox sağ olun, hörmətli cənab Prezident, dəvətə görə minnətdaram.**

**Mən qardaş Qırğızıstana, belə gözəl diyara səfər etməkdən çox şadam. Siz dediyiniz kimi, İssık-Kul Qırğızıstanın mirvarisidir. Düşünürəm ki, bu məkan bütün dünya üçün əhəmiyyətlidir. Bu, qırğızları və bu gözəl yerə gələnlərin hamısını sevindirən nadir təbii abidədir.**

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitinin təşkili münasibətilə Sizi təbrik etmək istərdim. Əminəm ki, bu, bizim birliyimizi, əməkdaşlığımızı təsdiq edən, həmçinin ikitərəfli münasibətlərimizi müzakirə etmək üçün yaxşı imkan yaradan əhəmiyyətli tədbirdir. Biz Qırğızıstanla əməkdaşlığa mühüm əhəmiyyət veririk. Əməkdaşlığı bütün istiqamətlər üzrə – həm siyasi, həm də iqtisadi sahələrdə artırmaq niyyətindəyik. Nəqliyyat sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlər açılır. Əminəm ki, bizim bugünkü görüşümüz gələcəkdə də uğurla inkişaf edəcək münasibətlərimizə yeni təkan verəcək. Bir daha qonaqpərvərliyə görə sağ olun".**

* * *

Sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərindəki Çingiz Aytmatov adına "Rux Ordo" Mədəniyyət Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Zirvə görüşü keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib.

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov Zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Dövlət başçıları birgə foto çəkdiriblər.

Zirvə görüşünün açılışında çıxış edən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının hazırkı sədri, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, builki Sammitdə Özbəkistan və Macarıstanın da iştirak etməsini yüksək dəyərləndirib.





Türk Şurasının VI Sammitinə ev sahibliyi edən Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov builki Zirvə görüşünün əsas mövzusunun milli idman növlərinin və gənclər arasında əməkdaşlığın inkişafı ilə bağlı olduğunu bildirib.

Şura qarşısında bir sıra vacib məsələlərin dayandığını vurğulayan Prezident Sooronbay Jeenbekov türkdilli dövlətlər arasında turizmin inkişafının əhəmiyyətini qeyd edərək deyib: **"Qırğızıstan ölkələrimiz arasında turizmin dinamik inkişafını fəal şəkildə dəstəkləyir. Biz bütün səylərimizi "Müasir İpək Yolu" layihəsinin uğurla reallaşmasına yönəltməyə hazırıq. Bu layihə Azərbaycanı, Türkiyəni, Qazaxıstanı və Qırğızıstanı əhatə edir. Özbəkistanın və Macarıstanın da bu layihəyə qoşulması onu daha da cəlbedici edəcək".**

Azərbaycan Prezidenti İlham Əliyev Sammitdə çıxış edib: **"Hörmətli Sooronbay Şərifoviç.**

**Hörmətli dövlət və hökumət başçıları.**

**Əziz dostlar.**

**İlk növbədə, Sooronbay Şərifoviç, göstərilən qonaqpərvərliyə görə və Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyiniz üçün Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Qırğızıstan torpağında olmağımdan çox məmnunam. Eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına uğurla sədrlik edən Qazaxıstan tərəfinə də öz minnətdarlığımı bildirirəm. Azərbaycan bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxlayır. Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır.**

**Regional təhlükəsizlik məsələləri xüsusi əhəmiyyət daşıyır. Çünki indiki dünyada yeni risklər, təhdidlər yaranır, yeni münaqişə, müharibə ocaqları alovlanır. Azərbaycan uzun illərdir ki, Ermənistanın işğalından əziyyət çəkir. İyirmi ildən çoxdur ki, beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt olunmuş, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır, hərbi cinayətlər, Xocalı soyqırımı törədilmişdir. Bu gün 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən tanıyır. Bir gecədə 600-dən çox günahsız insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir, mindən çox insan itkin düşüb. Onların taleyi haqqında heç bir məlumat yoxdur. İşğal edilmiş torpaqlarda Ermənistan bizim bütün tarixi, dini abidələrimizi, məscidlərimizi, əcdadlarımızın qəbirlərini dağıdıb, maddi sərvətlərimiz Ermənistan tərəfindən talan edilib. Bu, hərbi cinayətdir və bu cinayəti törədənlər ədalət qarşısında cavab verməlidirlər və verirlər. Təsadüfi deyil ki, 20 il ərzində Ermənistana rəhbərlik etmiş kriminal rejim çökdü və bu gün bizim dediyimizi erməni xalqı deyir. Ümid edirik ki, Ermənistanın yeni rəhbərliyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konstruktiv mövqe tutacaq, tezliklə bizim torpaqlarımız işğaldan azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bölgədə sülh və əməkdaşlıq yaranacaqdır.**

**Onu da qeyd etməliyəm ki, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır, BMT Təhlükəsizlik Şurası - dünyanın ən ali orqanı münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması haqqında çox dəqiq müddəalar var və münaqişə əlbəttə ki, bu prinsiplər əsasında öz həllini tapmalıdır. Digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti oxşar qərar və qətnamələr qəbul etmişlər. Bu, münaqişənin həlli üçün əsas hüquqi bazadır.**

**Bugünkü Zirvə görüşünün mövzusu idmanla bağlıdır. Bu barədə də öz fikirlərimi bildirmək istərdim. Azərbaycanda idmana çox böyük diqqət göstərilir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətidir. Ölkəmizdə bir neçə mötəbər beynəlxalq yarış keçirilmişdir. Onların arasında xüsusilə I Avropa Oyunlarını qeyd etmək istərdim. Digər qitə oyunlarından fərqli olaraq, Avropa Oyunları heç vaxt keçirilməmişdi. İlk dəfə olaraq üç il bundan əvvəl Bakıda Oyunlar keçirildi. Bu Oyunlarda Avropanın bütün ölkələrini təmsil edən 5 mindən çox idmançı iştirak etmişdir. Azərbaycan Oyunlarda yüksək idman nəticələri göstərmişdir və komanda hesabında ikinci yerə layiq görülmüşdür. Ondan iki il sonra, yəni ötən il Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu Oyunlarda Azərbaycan idmançıları birinci yerə layiq görülmüşlər. İki il ərzində bir şəhərdə həm Avropa, həm İslam Oyunlarının keçirilməsi Azərbaycanın millətlərarası, dinlərarası multikulturalizmə verdiyi töhfənin növbəti təzahürü olmuşdur. Azərbaycan idmançıları Olimpiya Oyunlarında da yaxşı nəticələr göstərirlər. Son Yay Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan 14-cü yerdə qərarlaşmışdır və bu, bizim ölkəmiz üçün tarixi nailiyyətdir.**

**İdman insanları, xalqları birləşdirir. Əminəm ki, idmanın inkişafı həm ölkələrimizin ümumi inkişafına töhfə verəcək, eyni zamanda, bizim əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.**

**Humanitar məsələlərə gəldikdə, xüsusilə TÜRKSOY-un və Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini yüksək qiymətləndirmək istərdim. Azərbaycan hər iki təşkilatda fəal iştirak edir.**

**Mən diqqətinizi iqtisadi əməkdaşlığa cəlb etmək istərdim. Xüsusilə indiki şəraitdə biz iqtisadi əməkdaşlığı dərinləşdirməliyik. Xüsusilə aramızdakı ticarət dövriyyəsinin artırılması üçün əlavə addımlar atılmalıdır və burada hesab edirəm ki, investisiya layihələri xüsusi rol oynayır. Qarşılıqlı investisiya qoyuluşunu təşviq etmək üçün yeni mexanizmlər işlənməlidir.**

**Azərbaycan qardaş ölkələrə böyük investisiyalar qoyur, ilk növbədə, Türkiyəyə. Son illərdə Türkiyə iqtisadiyyatına 14 milyard dollar sərmayə qoyulub və Türkiyə də Azərbaycana təxminən bu qədər sərmayə qoyub. Bizim Türkiyəyə sərmayələrimizin həcmi yaxın illərdə 20 milyard dollara çatacaq. Bu, bizim dostluğumuzu, qardaşlığımızı əks etdirir, eyni zamanda, Türkiyənin çox böyük iqtisadi potensialını göstərir. Əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilib, "Böyük iyirmilər"in aparıcı ölkələrindən biridir. Biz çox sevinirik ki, Türkiyə bütün sınaqlardan şərəflə çıxır, o cümlədən iqtisadi sınaqlardan. Biz hər zaman bir-birimizin yanındayıq və bunun ən gözəl göstəricisi, yenə də deyirəm, bizim qarşılıqlı sərmayəmizdir. Türkiyədə çox gözəl investisiya iqlimi, biznes üçün çox gözəl şərait var və biz Azərbaycan olaraq bundan sonra da qardaş ölkəyə sərmayə qoyuluşunu davam etdirəcəyik.**

**Bütövlükdə biz qardaş ölkələrə investisiyaların qoyuluşu ilə həm öz iqtisadi maraqlarımızı təmin edirik, həm də ki, bu ölkələrdə yeni imkanlar yaradırıq. Azərbaycan da qardaş ölkələrdən investisiyaları qəbul etmək üçün bütün işləri görüb. Azərbaycanda da gözəl sərmayə iqlimi var və qarşılıqlı sərmayə qoyuluşu bizim birliyimizi daha da möhkəmləndirəcək. Xüsusilə nəzərə alsaq ki, keçən ilin oktyabr ayından Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng infrastruktur layihəsi fəaliyyətdədir. Bu yol Asiyanı Avropa ilə birləşdirir və bu yolla yükdaşımalarının həcmi artır və artmalıdır. Bu, yeni nəqliyyat dəhlizidir, yeni nəqliyyat damarıdır. Azərbaycan dost, qonşu ölkələrlə birlikdə bu layihənin icrası ilə Avrasiyanın enerji xəritəsini yenidən tərtib etmiş olur. Nəzərə alsaq ki, nəqliyyat baxımından bu, çox əlverişli yoldur, mən bütün dost ölkələri bu yoldan istifadə etməyə çağırıram, o cümlədən Avropa ölkələrini, Macarıstanı, Özbəkistanı, Qırğızıstanı. Artıq Qazaxıstan, Türkiyə, Azərbaycan bu yoldan istifadə edir.**

**Bir sözlə, əziz dostlar, mən hesab edirəm ki, bugünkü Zirvə görüşünün çox böyük mənası var, çox gözəl nəticələri olacaq. Əsas nəticə də ondan ibarətdir ki, bizim dostluğumuz, qardaşlığımız daha da möhkəmlənəcək.**

**Təşəkkür edirəm".**



Qazaxıstan Prezidenti Nursultan Nazarbayev 2015-ci ildə keçirilən Astana Sammitindən ötən dövrdə türkdilli dövlətlər arasında əməkdaşlığın daha da inkişaf etdiyini, siyasi, iqtisadi, sosial və digər sahələrdə əlaqələrin möhkəmləndiyini diqqətə çatdırıb.

Nursultan Nazarbayev Novruz bayramının ortaq tədbirlərlə qeyd olunmasının mədəniyyət sahəsində əməkdaşlıq baxımından önəmini qeyd edib, Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasının əhəmiyyətini vurğulayaraq deyib: **"Prezident İlham Əliyevin dediyi kimi, Qafqazdan keçməklə Türküstandan Qara dənizə dəmir yolu istifadəyə verilib. Bununla yanaşı, Qazaxıstanın Kurık və Aktau limanlarının yükötürmə qabiliyyəti 26 milyon tona çatıb. Həmçinin Qazaxıstandan, Türkmənistandan və İrandan Körfəz ölkələri bazarlarına daxil olmağa imkan verən dəhlizi qeyd etmək lazımdır. Çindən Qazaxıstan vasitəsilə Xəzər dənizinə, Qafqaz regionuna və Avropaya konteynerlərin daşınması bizim üçün ticari-iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi baxımından yeni imkanlardır.**

**Onu da deyim ki, bizim sədrliyimiz dövründə elmi maarifləndirmə işlərinə xüsusi diqqət yetirilib. Belə ki, Azərbaycanın, Türkiyənin, Qırğızıstanın və Qazaxıstanın məktəb proqramlarına "Ümumtürk tarixi" dərsliyi daxil edilib. Türk Akademiyası tərəfindən tarix üzrə 90-dan çox kitab nəşr edilib, xalqlarımızın dörd əsrlik mədəniyyət mirasının toplandığı "Atalar mirası" portalı istifadəyə verilib, "Türkbarometr sosioloji tədqiqat" layihəsinin reallaşdırılmasına başlanılıb. Dövlətlərimiz arasında turizm sahəsində əməkdaşlığın inkişafı üçün "Müasir İpək Yolu" layihəsinə start verilib".**

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan 2009-cu ildə Naxçıvan Zirvə görüşü ilə əsası qoyulan Türk Şurasının ötən müddətdə sürətlə inkişaf edərək güclü quruma çevrildiyini diqqətə çatdıraraq deyib: **"2009-cu ildə Naxçıvan Sazişi ilə qurduğumuz Türk Şurasının ötən müddətdə təşkilati cəhətdən gücləndiyini görürük. Şübhəsiz, bu prosesdə türk dünyasının ağsaqqalı hörmətli Nazarbayevin və Azərbaycan Prezidenti hörmətli qardaşım İlham Əliyevin çox böyük əməyi var".**

Prezident Rəcəb Tayyib Ərdoğan nəqliyyat dəhlizlərinin inkişafından danışarkən Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini vurğulayıb, onun həm də xalqlarımızın yaxınlaşmasına xidmət etdiyini söyləyib: **"Xəzərdən keçməklə Qafqazı və Orta Asiyanı aşaraq Çinə qədər uzanan "Şərq-Qərb Orta Dəhliz" təşəbbüsünə önəm veririk. "Müasir İpək Yolu - Orta Dəhliz" kimi tanınan bu layihənin ən önəmli mərhələsi Azərbaycan ilə birlikdə həyata keçirdiyimiz Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Beləliklə, Qərbi Avropadan çıxan bir qatar dayanmadan Xəzər sahillərinə, oradan da Aktau limanı vasitəsilə Şanxaya və Seula çata biləcək. Bu mühüm nəqliyyat xətti xalqlarımızın rifah səviyyəsinin artmasına və münasibətlərimizin inkişafına töhfə verəcək.**

**Enerji sahəsində də əlaqələrin inkişaf etdirilməsinə önəm veririk. Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihələri bu əməkdaşlığın ən önəmli bəhrələridir. Cənub Qaz Dəhlizinin bel sütunu olan TANAP-ı da iyun ayında işə saldıq.**

**Xəzər dənizinin statusu ilə bağlı Konvensiyanın imzalanmasından duyduğumuz məmnunluğu burada xüsusi bildirmək istəyirəm".**

Türkiyə Prezidenti Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində Türkiyənin və digər ölkələrin dəstəyinin önəmli olduğunu bildirərək deyib: **"Türk dünyası olaraq, sülh və sabitliklə bağlı hər bir məsələyə böyük diqqət yetirməliyik. Bu baxımdan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üçün əlimizdən gələni etməyə davam edəcəyik".**

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının regional məsələlərdə, investisiya, nəqliyyat, təhsil və digər sahələrdə uğurla fəaliyyət göstərdiyini qeyd edərək bildirib: **"Yüksək səviyyəli görüş və dialoqlar nəticəsində Qazaxıstan, Qırğızıstan, Türkiyə və Azərbaycan arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq daha da möhkəmlənib. Ölkələrimizin regional məsələlərdə, investisiya, nəqliyyat, təhsil və digər sahələrdə ortaq fəaliyyətləri uğurla inkişaf edir və bu istiqamətdə bir sıra iqtisadi layihələr diqqəti cəlb edir. Azərbaycanda Ələt Beynəlxalq Dəniz Limanı, Qazaxıstanda "Dostluq" və digər nəqliyyat-logistika kompleksləri fəaliyyət göstərir. Bir müddət öncə isə Aktauda Kurık limanı işə düşdü. Bu layihələr gələcəkdə regional əməkdaşlığa töhfə verəcək. Türkiyənin Mersin limanına ən yaxın marşrut olan Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı, bu il fəaliyyətə başlayacaq Əndican-Oş-Kaşqar avtomobil dəhlizi bu baxımdan xüsusi imkanlar açır".**

Zirvə görüşündə müşahidəçi dövlət statusunda iştirak edən Macarıstanın Baş naziri Viktor Orban macar xalqının türkdilli xalqlarla əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu bildirib. Viktor Orban Avropanın mərkəzində yerləşən Macarıstanın da öz dilini və mədəniyyətini qoruduğunu deyib, bu məqsədlə ölkəsində həyata keçirilən tədbirlərdən danışaraq bildirib: **"Şuraya üzv ölkələr Macarıstanın xarici siyasətində çox vacib rol oynayırlar və Türkiyə ilə olduğu kimi, Azərbaycan və Qazaxıstan arasında münasibətlər bir neçə ildir ki, strateji tərəfdaşlıq səviyyəsindədir. Məqsəd həm də Qırğızıstan və Özbəkistan ilə münasibətləri eyni səviyyəyə çatdırmaqdır. Onu da deyim ki, Macarıstan il ərzində Azərbaycan da daxil olmaqla türkdilli ölkələrin tələbələrinə təqaüd verir".**

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Ramil Həsənov görülən işlər və gələcək planlar barədə məlumat verib.

Sonra nümayəndə heyətlərinin rəhbərləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitinin Bəyannaməsini və Şuranın yeni baş katibinin seçilməsi ilə bağlı sənədləri imzalayıblar.

Qazaxıstan nümayəndəsi, səfir Bağdat Amreev Şuranın yeni baş katibi seçilib.

Dövlət başçıları növbəti Zirvə görüşünün Azərbaycanda keçirilməsi təklifi ilə çıxış ediblər. Gələn il Sammitin Azərbaycanda keçirilməsi qərara alınıb.

Sonra dövlət və hökumət başçıları Çingiz Aytmatov adına "Rux Ordo" Mədəniyyət Mərkəzinin ərazisini gəziblər, burada açıq havada nümayiş etdirilən və qırğız xalqının görkəmli şəxsiyyətlərinin abidələrinə, eləcə də bu ölkənin tarixini, mədəniyyətini əks etdirən abidələrə baxıblar.

Bununla da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşü başa çatıb.

* * *

Sentyabrın 3-də Çolpon-Ata şəhərində Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun adından Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan dövlətlərin başçılarının şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri sentyabrın 3-də başa çatıb.

Çolpon-Ata şəhərinin İssık-Kul beynəlxalq hava limanında Prezident İlham Əliyevi Qırğız Respublikasının Baş naziri Muxammetkalıy Abılqaziyev və İssık-Kul vilayətinin qubernatoru Akılbek Osmonaliyev yola salıblar.

# Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir

## *Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya rəsmi səfər edib*

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri başlayıb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Soçi şəhərindəki "Boçarov Ruçey" dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Dövlət başçıları görüşdə çıxış ediblər.

Rusiya Prezidenti Vladimir Putin deyib: **"Hörmətli İlham Heydər oğlu.**

**Əziz dostlar.**

**İcazə verin, Sizi Soçidə ürəkdən salamlayım. Qeyd etmək istərdim ki, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və bu da təbiidir, qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi çox genişdir. Biz bunu strateji tərəfdaşlıq adlandırırıq. Münasibətlərimiz həm siyasi, həm də iqtisadi istiqamətdə inkişaf edir. Keçən il qarşılıqlı əmtəə dövriyyəsinin həcmi 34 faiz, hətta 34 faizdən də çox artıb, bu ilin birinci yarısında isə mülki təyinatlı məhsulların satış həcmi 20 faiz artıb. Bu, çox yaxşı göstəricidir. Lakin təbii ki, bizim həmişə danışmağa mövzumuz var. Çox şadam ki, Siz bizim dəvətimizi qəbul edib bu gün Rusiyaya gəlmisiniz. Xoş gəlmisiniz!".**





Azərbaycan Prezidenti İlham Əliyev deyib: **"Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç.**

**İlk növbədə, bizi Rusiyaya səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür etmək istərdim. Bizim görüşlərimizə həmişə şadam. Sizin qeyd etdiyiniz kimi, biz müntəzəm surətdə görüşürük və bu görüşlər münasibətlərimizə dinamizm gətirir. Bütün sahələrdə əlaqələrimizin inkişaf səviyyəsindən biz də məmnunuq. Münasibətlərimiz tamdəyərli, çox səmərəli şəkildə inkişaf edir, fəal siyasi dialoq xarakteri daşıyır. Siz əmtəə dövriyyəsinin artmasını qeyd etdiniz. Bu da ölkələrimizin iqtisadiyyatlarında müsbət meyillərə dəlalət edir. Bu, həm də onu göstərir ki, iqtisadi əməkdaşlığın böyük potensialı var. Əminəm ki, əmtəə dövriyyəsi qarşıdakı illərdə də artacaq. Biz enerji, nəqliyyat sahələrində əməkdaşlıq edirik.**

**Əlbəttə, bu gün biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələləri, regional problemləri də müzakirə edəcəyik. Bu gündəlik yetərincə genişdir. Əminəm ki, bizim bugünkü görüşümüz münasibətlərimizə əlavə impuls verəcək. Dəvətə görə bir daha təşəkkür edirəm".**

Həmin gün Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü və işçi naharı olub.

Geniş tərkibdə görüş və işçi nahar başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

"Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat"ı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzalayıblar.

Sonra "Rosneft" Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında "Qoşadaş" blokunun və Xəzər dənizi təkinin Azərbaycan hissəsində yerləşən Abşeron yarımadasının dayazsulu şimal hissəsinin neft və qaz potensialının birgə öyrənilməsi haqqında Saziş", "Rosneft" Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Kontrakt", "Azərbaycanda "QAZ" kommersiya avtomobilləri milli yığma istehsalının inkişafı sahəsində əməkdaşlıq haqqında Saziş", "Kiçik və orta sahibkarlığın inkişafı üzrə Federal Korporasiya" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" Publik Hüquqi Şəxs arasında qarşılıqlı anlaşma haqqında Memorandum çərçivəsində tədbirlərin reallaşdırılması üzrə Yol Xəritəsi", "Qazprombank" Səhmdar Cəmiyyəti, "Rusiya İxrac Mərkəzi" Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Rusiya Federasiyasından ixracın dəstəklənməsi sahəsində layihələrin birgə reallaşdırılması çərçivəsində strateji əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların hava nəqliyyatı ilə daşınması sahəsində gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol", "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında rəqəmsal nəqliyyat sistemləri sahəsində əməkdaşlıq haqqında Memorandum", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Saziş", "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında daşınmaz əmlak hüquqlarının qeydiyyatı və kadastr fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş", "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2024-cü ilədək əməkdaşlıq Proqramı" imzalanıb.







Sənədlərin imzalanması mərasimi başa çatandan sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Rusiya Prezidenti Vladimir Putin bəyanatla çıxış edib: **"Hörmətli xanımlar və cənablar.**

**Yadınızdadırsa, avqustun ortalarında Azərbaycan Prezidenti İlham Əliyevlə Xəzər Sammitində iştirak edirdik. Həmin Sammitin yekununa görə Xəzər dənizinin hüquqi statusu ilə bağlı mühüm Konvensiya imzalandı. Bu gün isə ölkəmizə səfərə gələn Azərbaycan Respublikasının Prezidentini böyük məmnuniyyətlə qəbul edirik.**

**Bir qədər əvvəl konstruktiv və işgüzar şəraitdə keçən danışıqlar başa çatdı. Qeyd edim ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Dövlətlərimizin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Əminəm ki, əsas idarələrin rəhbərlərinin və biznes nümayəndələrinin iştirak etdikləri bugünkü danışıqlar bütün Rusiya-Azərbaycan əlaqələri kompleksinin gələcək inkişafına əlavə təkan verəcək. Azərbaycan Prezidenti ilə imzalanan Birgə Bəyanat, həmçinin hökumətlərarası və idarələrarası sanballı sazişlər paketi məhz buna istiqamətlənib. İlk növbədə, əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planını qeyd edirəm. Bu proqram sənədə ticarətin və qarşılıqlı sərmayələrin artırılması, nəqliyyat marşrutlarının yaradılması, eləcə də humanitar qarşılıqlı fəaliyyətin, o cümlədən mədəni və turizm mübadilələrinin genişləndirilməsi kimi mühüm məsələlər üzrə belə adlandırılan yol xəritələri daxildir.**



**İkitərəfli iqtisadi əlaqələrə gəlincə, onlar çox fəal inkişaf edir. 2017-ci ilin yekununa görə Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib. Azərbaycan bazarında təxminən 700 birgə müəssisə, onlardan da üçdə biri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Sahibkarlıq birlikləri arasında, o cümlədən kiçik və orta biznes xətti ilə əlaqələr genişlənir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib. Azərbaycanda Rusiyanın bir çox enerji şirkətləri uğurla işləyir. Bunlar "Qazprom", "Transneft" və "Lukoyl"dur. Ümumiyyətlə, Rusiyanın və Azərbaycanın enerji sistemləri inteqrasiya rejimində fəaliyyət göstərir. Sənaye sahəsində kooperasiya dərinləşir.**

**İlham Heydər oğlu ilə müzakirə etdiyimiz bir neçə uğurlu birgə layihəni xatırladım. Məsələn, "KamAZ" Gəncə avtomobil zavodunda lisenziyalı yük maşınlarının buraxılmasını və onlara xidmət göstərilməsini qaydaya salıb. Rusiyanın "R-Farm" şirkəti 2019-cu ildə Azərbaycanda açılacaq dərman preparatlarının istehsalı müəssisəsinin tikintisinə 74 milyon dollar sərmayə yatırıb. "Qazprombank" Sumqayıt Kimya-Sənaye Parkının inkişafında iştirak edir. Sərmayənin həcmi təqribən 750 milyon dollar təşkil edir. Qərbi Avropa bazarlarını Asiya istehsalçıları ilə birləşdirəcək beynəlxalq Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasını ən perspektivli layihələrdən biri hesab edirik. Bu dəhliz Cənubi Asiya və Yaxın Şərqdən İran vasitəsilə Avropaya yükdaşımalarını xeyli sürətləndirməyə imkan verəcək. Bu arteriyanın ümumi uzunluğu 7 min kilometrdən artıqdır. Buraya dəmir yolu, bərə və avtomobil nəqliyyatı yolları daxildir. Həm də Şimal-Cənub dəhlizinin xeyli hissəsi Rusiya və Azərbaycan ərazisindən keçəcək. Qeyd edim ki, marşrutun ayrı-ayrı hissələri üzrə iş artıq aparılır. Gələn il ölkələrimiz Samur sərhəd çayı üzərindən körpünün tikintisini başa çatdırmaq niyyətindədir.**

**Regionlararası əməkdaşlıq mövzusunu da müzakirə etdik. Rusiya Federasiyasının 70-dən artıq subyekti Azərbaycanla iqtisadi əlaqələr saxlayır. Həm də onlardan 17-si ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq barədə Çərçivə sazişləri bağlayıb. Bu ilin oktyabrında növbəti regionlararası forum keçiriləcək. Bayaq müzakirə etdik ki, bu tədbir Gəncədə planlaşdırılmışdı, amma ola bilər dostlarımız bunu Bakıda təşkil etsinlər.**

**Mədəniyyət və təhsil sahəsində ikitərəfli əlaqələrin zənginliyini məmnunluqla qeyd etdik. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır. Onlardan minə yaxını Rusiya Federasiyasının Federal büdcəsi hesabına təhsil alır. Hər il Azərbaycan vətəndaşlarına 200-dən çox təqaüd verilir. Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılan Bakı Beynəlxalq Humanitar Forumunun iclasları müntəzəm keçirilir. Forumun ilin sonunda Bakıda keçiriləcək növbəti 6-cı iclasına 500-dən çox iştirakçının gələcəyi gözlənilir.**

**Əlbəttə ki, biz beynəlxalq və regional problemlərlə bağlı fikir mübadiləsi apardıq. Xüsusən, təbii ki, Dağlıq Qarabağ probleminə də toxunduq. Minsk qrupunun həmsədri kimi Rusiya bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcək.**

**Sonda Azərbaycan Prezidentinə, bizim bütün azərbaycanlı dostlarımıza, həmkarlarımıza məzmunlu və məhsuldar danışıqlara görə təşəkkür etmək istərdim. Əminəm ki, əldə olunmuş razılaşmalar Rusiya-Azərbaycan dostluğunun daha da möhkəmlənməsinə xidmət edəcək, ölkələrimizin və xalqlarımızın rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək göstərəcək. Diqqətinizə görə, təşəkkür edirəm".**

Prezident İlham Əliyevin bəyanatı: **"Hörmətli Vladimir Vladimiroviç.**

**Hörmətli xanımlar və cənablar.**

**Vladimir Vladimiroviç, ilk növbədə, Rusiyaya səfərə dəvətə, qonaqpərvərliyə, səmimi qəbula görə Sizə təşəkkürümü bildirmək istərdim.**

**Siz qeyd etdiyiniz kimi, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz son üç ayda üç dəfə görüşmüşük. Bu, üçüncü görüşümüzdür. İyunda Moskvada Futbol üzrə Dünya Çempionatı ərəfəsində, avqustda Qazaxıstanda və bu gün Soçidə görüşürük. Fürsətdən istifadə edib, Rusiyanı həmin qlobal beynəlxalq tədbiri uğurla keçirməsi, Rusiya yığmasını Dünya Çempionatında parlaq çıxışı münasibətilə bir daha təbrik etmək istərdim.**

**Ölkələrimizin dövlət başçıları arasında müntəzəm əlaqələr bizim çox möhkəm bazaya əsaslanan münasibətlərimizə dinamizm verir. Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir. Bu münasibətlər həyatımızın bütün sahələrini əhatə edir və bu gün mənim səfərim zamanı biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini, beynəlxalq problemləri ətraflı şəkildə müzakirə etdik. Vladimir Vladimiroviç bu gün bu barədə çox ətraflı danışdı.**

**Qeyd etmək istərdim ki, bizim müzakirə etdiyimiz məsələlər arasında regional təhlükəsizlik məsələləri, ilk növbədə, uzun müddət davam edən və Azərbaycan xalqının böyük iztirablarına gətirib çıxarmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi mühüm yer tutur. Uzun illərdir ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmış əraziləri erməni işğalı altındadır. Bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Münaqişənin tezliklə həlli bizim vətəndaşlarımızın öz tarixi torpaqlarına qayıtmalarına imkan verər, həmçinin bizim regiona sülh, sabitlik və əməkdaşlıq gətirər. Rusiya, münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi tənzimləmə işində mühüm rol oynayır. Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur. Biz ümid edirik ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcək.**

**Biz iqtisadi məsələlər üzərində ətraflı dayandıq və əmtəə dövriyyəsinin artdığını, gələcək üçün böyük perspektivləri məmnuniyyətlə qeyd etdik. Bu gün müzakirə edilmiş və razılaşdırılmış məsələlər, dəqiq desək, iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə yol xəritələri ölkələrimiz arasında onsuz da dinamizmi ilə fərqlənən əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək. Keçən il əmtəə dövriyyəsinin güclü artımına baxmayaraq, artım bu il də davam edir.**

**Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Yəni, bu, özlüyündə ölkələrimiz arasında əməkdaşlığın miqyasına və əhəmiyyətinə dəlalət edir. Vladimir Vladimiroviç dediyi kimi, çoxlu investisiya layihələri həyata keçirilir və onların yaxşı perspektivi vardır. Bütövlükdə ticari-iqtisadi sahədə əmtəə dövriyyəsinin artmasını, inteqrasiya əlaqələrinin möhkəmlənməsini və şirkətlərimiz arasında əməkdaşlıq üçün daha yaxşı şərait yaradılmasını gözləyirik. Əlbəttə, bu işdə nəqliyyat layihələri çox mühüm rol oynayır.**

**Rusiya və Azərbaycan qonşu dövlətlərdir. Bizi həm dəmir yolları, həm avtomobil yolları, həm də çox fəal sərnişin və yükdaşımaları üçün hava yolları birləşdirir. Biz ölkələrimiz, eləcə də qonşularımız üçün yeni nəqliyyat imkanları yaradılması üzrə gələcək addımlarımızı ətraflı müzakirə etdik. Vladimir Vladimiroviç Şimal-Cənub layihəsinin reallaşdırılmasının vacibliyini qeyd etdi. Azərbaycan da öz tərəfindən ölkə ərazisində bu istiqamətdə bütün mühüm infrastruktur layihələrini həyata keçirib. Bu il Şimal-Cənub nəqliyyat dəhlizi ilə keçən illə müqayisədə 100 dəfə çox yük daşınıb. Bu, hələ başlanğıcdır, çünki bu genişmiqyaslı qlobal layihə çoxsaylı ölkələri və qitələri əhatə edəcək. Beləliklə, ölkələrimizin tranzit imkanları artacaq, minlərlə yeni iş yeri yaradılacaq.**

**Bu gün neft-qaz sahəsində əməkdaşlığa dair mühüm sənədlər imzalandı. Bu, bizim əməkdaşlığımızın ənənəvi sahəsidir. Çox yaxşı potensial və perspektivlər var. Vladimir Vladimiroviç Azərbaycanda bir sıra mühüm nəqliyyat, infrastruktur, sənaye layihələrinin həyata keçirilməsində Rusiya banklarının fəal iştirakını qeyd etdi. Biz bunu çox alqışlayırıq.**

**Bu gün biz hərbi-texniki sahədə gələcək əməkdaşlığı da müzakirə etdik. Bu əməkdaşlığın artıq böyük ənənələri var. Rusiya ilə Azərbaycan arasında reallaşdırılmış kontraktların həcmi, daha doğrusu, Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu göstərici artmağa meyillidir. Ona görə ki, Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsini davam etdirir, Rusiya isə dünyada hərbi məhsulların ən mühüm istehsalçısı və beynəlxalq bazarların bu məhsullarla təchizatçısıdır.**

**Humanitar sahədə əməkdaşlıq diskussiyalarımızda xüsusi yer tutdu. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə, əsrlər boyu xalqlarımızı birləşdirmiş və bu gün də birləşdirən nə varsa, hamısına çox qayğı ilə yanaşırlar. Azərbaycanda təhsilin rus dilində olduğu 340-dan çox məktəb fəaliyyət göstərir, Rusiyanın aparıcı universitetlərinin iki filialı mövcuddur. Bu gün biz humanitar, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın möhkəmlənməsinə dair gələcək addımlarımızı müzakirə etdik, o cümlədən idman sahəsində imzalanmış sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq. Başqa sözlə, ölkələrimiz arasında tamdəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri var. Mehriban dostlar və qonşular arasında münasibətlər belə də olmalıdır.**

**Vladimir Vladimiroviç, dəvətə, baş tutmuş fikir mübadiləsinə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Öz növbəmdə, Sizin üçün münasib vaxtda Sizi Azərbaycana səfərə dəvət etmək istərdim. Sağ olun".**

**Vladimir Putin:** Çox sağ olun.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri sentyabrın 1-də başa çatıb.

Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Soçi şəhərinin meri Anatoli Paxomov və digər rəsmi şəxslər yola salıblar.

# Prezident İlham Əliyevin Soçi səfəri Rusiya mətbuatının diqqət mərkəzindədir




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri bu ölkənin aparıcı mətbuat orqanlarının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, Rusiyanın başlıca federal televiziya kanalları və aparıcı nəşrləri Azərbaycan liderinin qonşu ölkəyə səfərinin yekunlarını yüksək qiymətləndirib.

"Rossiyskaya qazeta" yazır ki, prezidentlərin Soçi görüşünün yekunlarına dair bir çox mühüm hökumətlərarası, müəssisələrarası sənədlər imzalanıb. Qəzet Vladimir Putinin fikirlərinə istinad edərək yazır: **"Ölkələr arasında iqtisadi əlaqələr intensiv inkişaf edir. Ötən il əmtəə dövriyyəsi təxminən 35 faiz artaraq 2 milyard dollara çatıb. Danışıqların yekunlarına dair iqtisadi əməkdaşlığın müxtəlif sahələrinə aid təsdiqlənmiş 5 "yol xəritə"si əmtəə dövriyyəsini daha da artırmağa, inteqrasiya əlaqələrini intensivləşdirməyə imkan verəcək".**

"Rossiyskaya qazeta" yazır ki, Rusiya və Azərbaycan liderləri nəqliyyat infrastrukturu sahəsində əməkdaşlığa xüsusi önəm veriblər. Prezidentlər "Şimal-Cənub" dəhlizini ən perspektivli layihə adlandırıblar. Bu dəhliz Cənubi Asiya və Yaxın Şərqdən İran vasitəsilə Avropaya yük daşımalarını xeyli sürətləndirməyə imkan verəcək.

Qəzet Prezident İlham Əliyevin çıxışından sitat gətirərək yazır: **"Azərbaycan da öz tərəfindən ölkə ərazisində bu istiqamətdə bütün mühüm infrastruktur layihələrini həyata keçirib. Bu il Şimal-Cənub nəqliyyat dəhlizi ilə keçən illə müqayisədə 100 dəfə çox yük daşınıb. Bu, hələ başlanğıcdır, çünki bu genişmiqyaslı qlobal layihə çoxsaylı ölkələri və qitələri əhatə edəcək. Beləliklə, ölkələrimizin tranzit imkanları artacaq, minlərlə yeni iş yeri yaradılacaq".**




"Rossiyskaya qazeta" prezidentlərin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair müzakirələrinə də yer ayırıb. Qəzet Prezident Vladimir Putinin ölkəsinin ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin həllinə hərtərəfli kömək göstərəcəyi barədə fikirlərini sitat gətirib.

Azərbaycan Prezidentinin iki ölkə arasında hərbi-texniki əməkdaşlıq haqqında dedikləri də Rusiya oxucularına təqdim olunub. Azərbaycan Prezidenti deyib: **"Rusiya ilə Azərbaycan arasında reallaşdırılmış kontraktların həcmi, daha doğrusu, Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu göstərici artmağa meyillidir. Ona görə ki, Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsini davam etdirir, Rusiya isə dünyada hərbi məhsulların ən mühüm istehsalçısı və beynəlxalq bazarların bu məhsullarla təchizatçısıdır".**

Soçidə Azərbaycan ilə Rusiya arasında imzalanan sənədlərdən bəhs edən "Kommersant" qəzeti yazır ki, iki ölkə arasında malların hava nəqliyyatı ilə daşınması sahəsində gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol imzalanıb. Qəzet yazır: **"Bundan əlavə Rusiya və Azərbaycan "Qoşadaş" bloku və Xəzərin dibinin Azərbaycana aid hissəsində Abşeron yarımadasının şimalında neft və qaz potensialının öyrənilməsi ilə birgə məşğul olacaqlar".**

"Rosneft" və SOCAR, habelə "Qaz Avtomobil Zavodu" QSC ilə "Azərmaş" ASC arasında da müqavilələrin bağlanması "Kommersant" qəzetinin yazılarında qeyd olunub.

Sonda Prezident İlham Əliyevin rusiyalı həmkarını Azərbaycana səfərə dəvət etdiyi vurğulanıb.

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadan



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ünvanına doğum günü münasibətilə Azərbaycanın və xarici ölkələrin tanınmış ictimai-siyasi, elm və təhsil xadimlərindən, ziyalılardan, sadə vətəndaşlardan çoxsaylı təbrik məktubları daxil olub. Təbrik məktublarında Birinci vitse-prezidentin müasir Azərbaycanın dövlət idarəçiliyində və inkişafında oynadığı yüksək rola böyük dəyər ifadə olunur, ölkəmizdə və onun hüdudlarından kənarda həyata keçirdiyi humanist və xeyirxah fəaliyyəti yüksək qiymətləndirilir. Təbrik məktublarında Mehriban xanıma dərin hörmət, məhəbbət, inam və etimad ifadə olunur.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva onu təbrik edənlərə müraciət ünvanlayıb. Müraciətdə deyilir: **"Əziz dostlar,**

**Doğum günüm münasibətilə çoxlu təbriklər almışam. Ən müxtəlif insanlar mənə səmimi arzularını, ürək sözlərini ünvanlayırlar. Tələbələr və pensiyaçılar, həmvətənlərimiz və xaricdəki dostlarımız mənə məktub yazırlar. Çox təəssüf ki, sizin hər birinizə şəxsən cavab verməyə fiziki baxımdan imkanım yoxdur. Lakin mənə ünvanladığınız səmimi sözlərə, fəaliyyətimə verdiyiniz xoş və yüksək qiymətə görə hamınıza ürəkdən təşəkkür edirəm. Hər bir təbrik mənim üçün dəyərlidir və mənə müsbət enerji verir.**

**Əziz dostlar,**

**Biz dinamik inkişaf edən dünyada yaşayırıq. Baş verən bütün dəyişikliklərə baxmayaraq, insanlıq və saflıq, səmimilik və xeyirxahlıq, mərhəmət və sevgi həmişəki kimi başlıca dəyərlər olaraq qalır.**

**Mən sizin sevginizi və dəstəyinizi həmişə hiss etmişəm. Sizin xoş diləkləriniz mənim fəaliyyətimə verilən ən yüksək qiymətdir. Buna görə sağ olun. İnanın ki, bu, doğum günü üçün ən yaxşı hədiyyədir.**

**Əziz dostlar,**

**Diqqətinizə və səmimi təbriklərinizə görə sizin hamınıza bir daha ürəkdən təşəkkür edirəm.**

**Sizin hamınıza xoşbəxtlik, cansağlığı, nurlu, sevgi ilə dolu həyat, doğma Azərbaycanımıza sülh, əmin-amanlıq və firavanlıq arzu edirəm".**

# Tehranda OANA İcraiyyə Komitəsinin 43-cü iclasının rəsmi açılışı olub



Sentyabrın 3-də İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 43-cü iclasının rəsmi açılış mərasimi keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, iclasda İranın İRNA Dövlət Agentliyinin baş direktoru Seyid Ziya Haşemi, bu ölkənin mədəniyyət və islami irşad naziri Abbas Salehi, AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanov və Bolqarıstanın BTA Agentliyinin baş direktoru, 2019-2022-ci illərdə Dünya Xəbər Agentlikləri Konqresinə sədrlik edəcək Maksim Minçev çıxış ediblər.

Sonra İcraiyyə Komitəsinin sessiyası işə başlayıb.

Sessiyada Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktoru Sergey Mixaylov, baş direktorun birinci müavini Mixail Qusman, Vyetnamın VNA Xəbər Agentliyinin baş direktoru Nguyen Duk Loi, Qətərin QNA Agentliyinin baş direktoru Yusif İbrahim əl-Maliki, həmçinin Türkiyənin Anadolu, Cənubi Koreyanın Yonhap, Çinin Sinxua, Yaponiyanın Kyodo, Monqolustanın MONTSAME, Bəhreynin BNA, İndoneziyanın ANTARA və Malayziyanın Bernama agentliklərinin rəhbərləri və nümayəndələri iştirak ediblər.

Qurumun baş katibi Vüqar Seyidovun moderatorluğu ilə keçən işçi iclasda AZƏRTAC tərəfindən OANA-nın işinin təkmilləşdirilməsi istiqamətində irəli sürülən təkliflər müzakirə edilib. Müzakirələr zamanı bir sıra agentliklər bu təkliflərin OANA-nın işinin səmərəliliyini artıracağına əminliklərini bildiriblər, onların qəbul olunmasına razılıqlarını ifadə ediblər.

Yonhap agentliyinin beynəlxalq əlaqələr departamentinin direktoru xanım Kim Jinhyunq iclasda çıxış edərək OANA-nın Baş Assambleyasının 2019-cu il noyabrın 6-9-da Seul şəhərində keçirilməsi üçün ciddi hazırlıq işlərinin aparıldığını deyib.

Tədbirdə, həmçinin İranın İRNA agentliyinin 2022-ci ildə OANA-ya prezidentliyi məsələsi də müzakirə olunub. Bu təşəbbüs İcraiyyə Komitəsinin üzvləri tərəfindən qəbul olunub və səsə qoyulması üçün OANA-nın Baş Assambleyasına təqdim ediləcəyi bildirilib.

VNA agentliyinin baş direktoru Nguyen Duk Loi çıxış edərək deyib ki, Vyetnam hökuməti OANA İcraiyyə Komitəsinin növbəti iclasının 2019-cu il aprelin 18-21-də Hanoyda keçirilməsini təklif edir.

Həmçinin Monqolustanın MONTSAME Milli Xəbər Agentliyinin OANA İcraiyyə Komitəsinin iclasına 2020-ci ildə ev sahibliyi etmək istədiyi, Türkiyənin Anadolu agentliyinin də belə tədbirin keçirilməsində maraqlı olduğu bildirilib.

# Qırğızıstanda üçüncü Dünya Köçəri Oyunlarının rəsmi açılış mərasimi olub



Qırğızıstanın İssık-Kul gölünün sahilində yerləşən Baktuu-Dolonotu kəndindəki cıdır meydanında üçüncü Dünya Köçəri Oyunlarının rəsmi açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, mərasimdə Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Macarıstanın Baş naziri Viktor Orban və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanov iştirak ediblər.

Sooronbay Jeenbekov dövlət başçılarını, fəxri qonaqları və meydana toplaşanları bu idman bayramı münasibətilə təbrik edib, idmançılara uğurlar arzulayıb.

Qırğızıstan Prezidenti bildirib ki, birinci Dünya Köçəri Oyunları 2014-cü ildə, ikincisi isə 2016-cı ildə keçirilib. Bugünkü yarışlara isə dünyanın 60-dan artıq ölkəsindən 3 minə yaxın idmançı qatılıb. Onlar idmanın 37 etnik növü üzrə yarışlarda mübarizə aparacaqlar.

Prezident qeyd edib ki, dördüncü Köçəri Oyunları Türkiyədə keçiriləcək.

Sonra Köçəri Oyunlarına qatılan idmançılar öz ölkələrinin bayraqları ilə tribunanın qarşısından keçiblər.

Açılış mərasimi at yarışları və səhnələşdirilmiş konsert proqramı ilə başa çatıb.

# Aslan Aslanov: OANA-nın sədri olaraq əsas hədəfimiz qurumun fəaliyyətini müasirləşdirməkdir

AZƏRTAC 2016-cı ildən 35 ölkədən 44 agentliyin daxil olduğu Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına (OANA) rəhbərlik edir. Dünya üzrə informasiya axınının 1/3-i təşkilata üzv olan agentliklərin payına düşür. AZƏRTAC-ın sədrliyi dövründə nüfuzlu xəbər agentliklərini ətrafında birləşdirən təşkilatın fəaliyyətinin genişləndirilməsi istiqamətində addımlar atılıb, bu məqsədlə bir sıra yeniliklər edilib.




Bu barədə OANA-nın prezidenti, Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyətinin sədri Aslan Aslanov İranın İRNA informasiya agentliyinə müsahibəsində məlumat verib. Müsahibədə OANA-nın İcraiyyə Komitəsinin sentyabrın 3-4-də Tehranda AZƏRTAC-ın sədrliyi ilə keçiriləcək 43-cü iclasında müzakirəyə çıxarılması nəzərdə tutulan məsələlərə toxunulub.

OANA-nın prezidenti qeyd edib ki, feyk xəbərlər probleminin aktuallaşdığı bir dövrdə etibarlı informasiya mənbələrinə ehtiyac xüsusilə artır. Buna görə də sədr kimi AZƏRTAC-ın məqsədi bu təşkilatın sıralarında birləşən xəbər agentliklərinin dəqiq və qərəzsiz informasiyalarını daha böyük auditoriyaya çatdırmaq, qurumun fəaliyyət dairəsini genişləndirməkdir. Bununla bağlı, ilk növbədə, OANA-nın veb-saytının təkmilləşdirilməsi istiqamətində bir sıra işlər görülüb, burada üzv agentliklərin xəbərlərinin həcminin artırılması ilə əlaqədar tədbirlər həyata keçirilib.

Müsahibədə qeyd olunur ki, Tehran iclasında AZƏRTAC-ın təşəbbüsü ilə təşkilatın idarəçiliyinin daha da gücləndirilməsi üçün təkliflər müzakirəyə çıxarılacaq. Buraya qurumun daimi baş katiblik ofisinin, təlim akademiyasının yaradılması, üzv agentliklərin əməkdaşları üçün treninqlərin və seminarların təşkili kimi məsələlər daxildir. **"Müasir internet əsri bizdən davamlı təcrübə mübadiləsi aparmağı, yeni çağırışlara hazır olmağı tələb edir. Odur ki, OANA-nın fəaliyyətini daha da müasirləşdirmək, dövrün tələbinə uyğunlaşdırmaq qarşımızda əsas hədəf kimi dayanır. Bu və digər məsələlər Tehranda üzv agentliklərin iştirakı ilə geniş müzakirə olunacaq",** - deyə OANA-nın prezidenti bildirib.

Qeyd edək ki, OANA İcraiyyə Komitəsinin Tehranda keçiriləcək iclasında Rusiyanın TASS, Türkiyənin Anadolu, Çinin Sinxua, Yaponiyanın Kyodo, Cənubi Koreyanın Yonhap və digər üzv agentliklərin rəhbərləri və nümayəndələri iştirak edirlər.

# Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının İcraiyyə Komitəsinin üzvləri Tehranda toplaşıblar

Sentyabrın 2-də İran İslam Respublikasının paytaxtı Tehranda Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 43-cü iclası işə başlayıb. İclas sentyabrın 4-dək davam edəcək.



AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanovun iclasdan əvvəl Monqolustanın "Montsame" Milli Xəbər Agentliyinin informasiya texnologiyaları və istehsalı şöbəsinin müdiri Onan Daşdorj, Vyetnam Xəbər Agentliyinin (VNA) baş direktoru Nguyen Duk Loi, İranın İRNA Dövlət Xəbər Agentliyinin baş direktoru Seyid Ziya Haşemi və Koreya Respublikasının Yonhap Agentliyinin beynəlxalq əlaqələr departamentinin direktoru xanım Kim Jinhyunq ilə görüşləri olub.

Görüşlərdə AZƏRTAC-ın sədrliyi dövründə OANA-nın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Agentliyin irəli sürdüyü bir sıra təkliflər barədə ətraflı fikir mübadiləsi aparılıb. Həmçinin OANA-nın daimi katibliyinin, təlim akademiyasının, qurumun maliyyə vəsaitinin düzgün yönləndirilməsi üçün komissiyanın yaradılmasının, foto və digər müsabiqələrin keçirilməsinin vacibliyi barədə razılığa gəlinib.

Monqolustanın "Montsame" Milli Xəbər Agentliyinin şöbə müdiri Onan Daşdorj 2021-ci ildə "Montsame"nin 100 illik yubileyinin qeyd olunacağını bildirib və bununla əlaqədar OANA-nın İcraiyyə Komitəsinin toplantısının 2020-ci ildə Ulan-Batorda keçirilməsinə kömək göstərilməsini xahiş edib.

Vyetnam Xəbər Agentliyinin baş direktoru Nguyen Duk Loi ilə keçirilən görüşdə AZƏRTAC ilə VNA agentliyi arasında qarşılıqlı əlaqələrin perspektivləri müzakirə edilib. Nguyen Duk Loi bildirib ki, Vyetnam hökuməti OANA-nın İcraiyyə Komitəsinin toplantısının 2019-cu ildə Hanoyda keçirilməsini təklif edir.

İRNA Dövlət Agentliyinin baş direktoru Seyid Ziya Haşemi ilə görüşdə 2022-ci ildə bu agentliyin OANA-nın prezidentliyinə namizədliyinin irəli sürməsi məsələsi müzakirə edildi. Seyid Ziya Haşimi əmin olduğunu bildirib ki, AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti bu məsələdə onlara dəstək verəcək.

Sonra Aslan Aslanov Koreya Respublikasının Yonhap agentliyinin beynəlxalq əlaqələr departamentinin direktoru Kim Jinhyunq ilə görüşüb. Görüşdə qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, informasiya mübadiləsinin artırılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Xanım Kim Jinhyunq 2019-cu ildə OANA-nın Baş Assambleyasının Seul şəhərində keçirilməsi üçün ciddi hazırlıq işlərinin görüldüyünü bildirib.

Daha sonra AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov Qətərin QNA agentliyinin direktoru Yusif İbrahim əl-Maliki ilə görüşüb. Görüşdə agentliklər arasında əlaqələrin genişlənməsindən məmnunluq ifadə olunub, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşlərdə OANA-nın prezidentinin təkliflərinin qurumun fəaliyyətinin həqiqətən təkmilləşdirilməsinə böyük töhfə verəcəyi vurğulanıb və irəli sürülən bu təkliflərin iclasda dəstəklənəcəyi qeyd olunub.

# Sevinc Fətəliyeva: Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsinə töhfə verəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 1-də Rusiya Federasiyasına rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Səfər çərçivəsində Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın inkişafına dair mühüm sənədlər imzalanıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Səfər çərçivəsində iqtisadi, neft-qaz, hərbi-texniki, humanitar və digər sahələrdə münasibətlərin inkişafına dair müzakirələrin diqqət mərkəzində olduğunu deyən deputat əlavə edib ki, Rusiya ilə Azərbaycan arasında bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın böyük potensialı var. Rusiya Prezidentinin qeyd etdiyi kimi, ötən ilin yekununa görə Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib.

Sevinc Fətəliyeva Prezident İlham Əliyevin mətbuata bəyanatında səsləndirdiyi fikirlərdən sitat gətirərək qeyd edib ki, səfər çərçivəsində müzakirə edilmiş və razılaşdırılmış məsələlər, iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə yol xəritələri ölkələrimiz arasında onsuz da dinamizmi ilə fərqlənən əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək. Səfər çərçivəsində Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın müxtəlif sahələrdə daha da inkişaf etdirilməsinə imkan verəcək mühüm sənədlər imzalanıb.

Səfərin Azərbaycan-Rusiya əlaqələrinin inkişafı baxımından əhəmiyyətinə toxunan S.Fətəliyeva deyib: **"Prezident İlham Əliyev mətbuata bəyanatında qeyd etdi ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlığın bariz nümunəsidir. Həqiqətən də, iki ölkə arasında əlaqələrin dinamikasına nəzər saldıqda aydın olur ki, müxtəlif sahələri əhatə edən Rusiya-Azərbaycan münasibətləri qarşılıqlı faydalı əməkdaşlığa və strateji tərəfdaşlığa əsaslanır, uğurla inkişaf edir".**

Milli Məclisin deputatı bildirib ki, Rusiya-Azərbaycan münasibətləri regional təhlükəsizlik baxımından da mühüm əhəmiyyətə malikdir. Hər iki ölkə regional təhlükəsizlik və əməkdaşlığa xüsusi diqqət yetirir, bu prosesə əhəmiyyətli töhfələr verir. Səfər zamanı regional təhlükəsizlik məsələləri, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi də diqqət mərkəzində oldu. Şübhəsiz ki, Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində mühüm rol oynayır. **"Hesab edirəm ki, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində əldə edilmiş razılaşmalar iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinə əhəmiyyətli töhfələr verəcək",** - deyə S.Fətəliyeva vurğulayıb.

# Elman Nəsirov: Bu səfər Azərbaycan ilə Rusiya arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafında mühüm rol oynayacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 1-də Rusiya Federasiyasına rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafı üçün yeni imkanlar açıb. İmzalanmış sənədlərin miqyasına görə bu səfəri Azərbaycan-Rusiya münasibətləri üçün ilin hadisəsi kimi də dəyərləndirmək olar.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, politoloq Elman Nəsirov bildirib.

Elman Nəsirov deyib ki, bu səfər iki nöqteyi-nəzərdən diqqəti cəlb edir. Birincisi, Azərbaycan və Rusiya prezidentlərinin birgə səyləri sayəsində avqustun 12-də Aktau şəhərində 22 ildir ki, həllini tapmayan Xəzərin hüquqi statusu ilə bağlı yekun Konvensiya imzalandı. Məhz bu Konvensiyanın imzalanmasından sonra artıq Azərbaycan-Rusiya münasibətlərinin bütün spektrlər üzrə inkişafı üçün yeni şərait yaranıb. Sentyabrın 1-də baş tutan səfər də məhz bu Konvensiyanın imzalanmasından sonra həyata keçirildiyi üçün özəl məna və əhəmiyyət kəsb edir. Bu səfər həm də o baxımdan əhəmiyyətli idi ki, 2008-ci ilin iyul ayında "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" qəbul edilib. Həmin sənədin on illiyi tamam olub. Bu Bəyannamənin əsası Ulu öndər Heydər Əliyevin 1997-ci ildə Rusiyaya səfəri ilə qoyuldu. O zaman Azərbaycan ilə Rusiya arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalanmışdı. Bütün bunlar göstərir ki, ikitərəfli münasibətlərimiz strateji xarakter daşıyır. Sentyabrın 1-də baş tutan səfər bir daha bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan-Rusiya münasibətləri, ilk növbədə, bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələridir, bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə söykənir, qarşılıqlı hörmətə və etimada əsaslanır.

Politoloq qeyd edib ki, hər bir səfər imzalanmış sənədlər və onların əhəmiyyəti nöqteyi-nəzərdən qiymətləndirilir. Bu səfər də, ilk növbədə, imzalanmış sənədlərin həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri baxımından diqqəti cəlb edir. Səfər çərçivəsində on beş mühüm sənəd imzalanıb. Onların içərisində üçünü xüsusi qeyd etmək lazımdır. Bunlar "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat", "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2024-cü ilədək əməkdaşlıq Proqramı"dır.

Deputat "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı"na toxunaraq qeyd edib ki, bu fəaliyyət ölkələrimiz arasında siyasi dialoqu, ticari-iqtisadi inkişafı, investisiya qoyuluşu məsələlərini, yeni nəqliyyat dəhlizlərinin yaradılması, mədəni, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi və digər sahələr üzrə yol xəritələrini özündə ehtiva edir. Hər iki dövlətin prezidentlərinin imzaladığı Bəyanat isə nəticə etibarilə Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətlərini göstərən bir sənəddir. Bizim iqtisadi sahədə əməkdaşlığımızın çox geniş imkan və potensialı var. Prezident Vladimir Putin mətbuata bəyanatında qeyd edib ki, 2017-ci ildə Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi demək olar ki, 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu isə 1,5 milyard dollar təşkil edib.

Elman Nəsirov diqqətə çatdırıb ki, bundan başqa, Azərbaycan ilə Rusiya arasında humanitar sahədə əməkdaşlıq məsələləri də genişlənməkdədir. 2010-cu ildə Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə yaradılan Bakı Beynəlxalq Humanitar Forumu xüsusi qeyd olunmalıdır. Oktyabr ayında Bakıda VI Forum keçiriləcək. Rusiyada 11 mindən çox azərbaycanlı təhsil alır. Azərbaycanda isə rus dilində təhsil verən 340-dan çox məktəb mövcuddur.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında qeyd edib ki, Azərbaycan-Rusiya münasibətləri strateji xarakterlidir. Ölkələrimizin prezidentləri arasında müntəzəm əlaqələr dövlətlərarası münasibətlərə dinamizm verir. Prezident İlham Əliyev vurğulayıb ki, son üç ay ərzində Rusiya Prezidenti ilə üç dəfə görüş keçirilib. Birincisi, Moskvada futbol üzrə Dünya çempionatı ərəfəsində, avqustda Qazaxıstanda və bu gün isə Soçidə.

Eyni zamanda, qeyd olunmalıdır ki, Azərbaycan Prezidenti ilə Rusiya Prezidenti arasında danışıqlar prosesində həm də regional təhlükəsizlik məsələləri müzakirə olunub. Bu xüsusda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələlər də diqqət mərkəzində saxlanıldı. Rusiya Prezidenti Vladimir Putin ölkəsinin ATƏT-in Minsk qrupunun həmsədri kimi münaqişənin sülh yolu ilə tənzimlənməsi prosesinə bundan sonra da fəal dəstək verəcəyini bildirib. Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, bu münaqişə regionda sülhə və təhlükəsizliyə ən ciddi təhdiddir. Münaqişə nəticəsində Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış torpaqlarının 20 faizindən çoxu işğal altındadır. Ölkəmizdə bir milyondan çox qaçqın və məcburi köçkün var. Bu münaqişə həllini tapmadıqca o, regionda riskləri artıran əsas amil olacaq. Yalnız münaqişənin həlli region üçün də yeni şərait təmin edər. Heç şübhəsiz ki, bu münaqişənin həlli Ermənistanın düşdüyü mövcud böhranlı vəziyyətdən çıxması üçün də ən düzgün yoldur. Bunun alternativ yolu yoxdur. Yalnız işğala son qoyulması Ermənistanın gələcəyi deməkdir.

Deputat bildirib ki, Prezident İlham Əliyev Rusiya-Azərbaycan iqtisadi münasibətlərini xüsusi vurğulayıb. Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Bu ilin altı ayının yekunları da bunu bir daha təsdiq edir. Altı ayın yekunlarına görə, Azərbaycan Rusiyaya 350 milyon dollar dəyərində məhsul ixrac edib. Rusiyadan Azərbaycana isə 788 milyon dollarlıq məhsul daxil olunub.

Rusiya və Azərbaycan prezidentlərinin danışıqlarında diqqət mərkəzində saxlanılan bir məsələ də hərbi-texniki sahədə gələcək əməkdaşlıqla bağlı oldu. Azərbaycan tərəfindən Rusiyadan alınan hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu sahədə əməkdaşlıq bundan sonra da davam edəcək.

Səfər çərçivəsində həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərimiz və genişspektrli məsələlər diqqət mərkəzində saxlanılıb. Bütövlükdə artıq həm Rusiya, həm də Azərbaycan mətbuatında bu səfərə çox yüksək qiymət verilir. Bu səfər Azərbaycan ilə Rusiya arasında dostluq və mehriban qonşuluq münasibətlərinin bundan sonrakı inkişafı, regionda sülhün və təhlükəsizliyin təminatı üçün mühüm rol oynayacaq.

# Rusiyalı politoloq Rusiya və Azərbaycan prezidentlərinin görüşünü əlamətdar hesab edir

Rusiyanın tanınmış politoloqu Qriqori Trofimçuk Rusiya və Azərbaycan prezidentlərinin sentyabrın 1-də Soçidə keçirilmiş görüşünü əlamətdar hesab edir.

Ekspert AZƏRTAC-a müsahibəsində deyib: **"Bir çox ekspertlər iki prezident arasında keçirilmiş görüşü onilliyin ən mühüm görüşü hesab edirlər. Bir çox cəhətdən bu fikirlə razıyam. Lakin mən onu daha dəqiq olaraq belə adlandırardım: əlamətdar görüş. Sadəcə o səbəbdən ki, Rusiya və Azərbaycan arasında yüksək səviyyəli danışıqlar Ermənistanın anlaşılmaz davranışının artması fonunda keçdi".**

Onun sözlərinə görə, heç də sonuncu dərəcəli olmayan həmin səbəbdən İlham Əliyevin səfərinə məhz bu cür məna verilib. **"Xüsusən ona görə ki, razılaşmaların olduqca mühüm bəndlərindən biri,**



**Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, bu ölkənin Rusiyadan getdikcə daha çox hərbi təyinatlı məhsullar almasıdır. Artıq bu məhsulların dəyəri 5 milyard dolları ötür. Bu, bariz nümunədir",** - deyə Q.Trofimçuk qeyd edib.

O vurğulayıb ki, Azərbaycan özünün regionda Moskvanın daha etibarlı tərəfdaşı olduğunu göstərir ki, bu da artıq özlüyündə siyasi kapitaldır. Bu mənada onu tez-tez strateji tərəfdaş adlandırırlar, hərçənd ki, Azərbaycan Ermənistan kimi nə Avrasiya İqtisadi Birliyinə, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına daxil olub.

Danışıqların yekunu üzrə imzalanmış böyük sənədlər paketi, rusiyalı ekspertin fikrincə, müstəqil məna kəsb edir və regionda vəziyyəti gərginləşdirmək meylindən uzaqdır.

**"Rusiya Prezidenti, öz növbəsində, "Şimal-Cənub" nəqliyyat marşrutunun vacibliyini qeyd edib ki, bu, bütünlükdə regional təhlükəsizliyi möhkəmlətməyə imkan yaradır. Beləliklə, iki prezidentin görüşü Rusiya-Azərbaycan münasibətlərinin gələcək inkişafı üçün möhkəm əsaslar yaratdı",** - deyə rusiyalı politoloq Qriqori Trofimçuk AZƏRTAC-a müsahibəsində bildirib.

# Hikmət Babaoğlu: Azərbaycan və Rusiya liderlərinin görüşləri dövlətlərimiz arasında münasibətlərə xüsusi dinamizm verir



Rusiya-Azərbaycan ikitərəfli münasibətləri daim aktuallıq kəsb edir. Hazırda Rusiya Federasiyasının da daxil olduğu geniş mənada regionumuzda çox mühüm tarixi hadisələr baş verir. Belə mərhələdə qonşu, dost və strateji tərəfdaş ölkələrin prezidentlərinin görüşü həm yeni iqtisadi, həm də yeni siyasi-humanitar şərtlərin formalaşması baxımından əhəmiyyətlidir. Qeyd edək ki, Rusiya və Azərbaycan prezidentləri arasında müntəzəm təmaslar dövlətlərarası münasibətlərə xüsusi dinamizm verir. Rusiya-Azərbaycan münasibətləri təkcə ikitərəfli münasibətlər kontekstində deyil, həm də bütövlükdə regionun gələcəyi kontekstində qiymətləndirilməli olan münasibətlərdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. O qeyd edib ki, Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur. Rusiya Azərbaycanın ciddi problemi olan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində yaxından iştirak edir. Bununla yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli məsələsi Rusiya-Azərbaycan münasibətlərində prioritet təşkil edir. Soçidə bu problemin həlli ilə bağlı da dövlət başçıları arasında müzakirələr aparıldı.

Deputat deyib, dövlət başçılarının Soçi görüşünə daha geniş kontekstdən nəzər yetirsək görərik ki, Rusiya-Azərbaycan münasibətləri üçtərəfli və dördtərəfli formatlarda da əhəmiyyət kəsb edir. Həmçinin Rusiya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrə toxunan Hikmət Babaoğlu deyib: **"Soçidə iqtisadi əməkdaşlığa dair imzalanan sənədlər ölkələrimiz arasında əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək. Hazırda Rusiya Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. İki ölkə qarşılıqlı şəkildə bir-birinə investisiya yatırır. Azərbaycan Prezidentinin mətbuata bəyanatında qeyd etdiyi kimi, Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Yəni, bu, özlüyündə ölkələrimiz arasında əməkdaşlığın miqyasına və əhəmiyyətinə dəlalət edir. Azərbaycan ilə Rusiya arasında qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsinin çox böyük potensialı var".**

Soçi görüşlərində deyildiyi kimi, Rusiya ilə Azərbaycanın birgə nəqliyyat layihələri çoxsaylı ölkələri əhatə edəcək. Bununla ölkələrimizin tranzit imkanları artacaq, minlərlə yeni iş yeri yaradılacaq. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bu il Şimal-Cənub nəqliyyat dəhlizi ilə keçən illə müqayisədə 100 dəfə çox yük daşınıb.

Hikmət Babaoğlu qeyd edib ki, söylənən bu fikirlərin fonunda yalnız bir məqam durur: Rusiya ilə Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır.

# Dmitri Savelyev: Rusiya ilə Azərbaycan arasında sarsılmaz münasibətlər bütün regionda təhlükəsizliyin əsasıdır



Sentyabrın 1-də Soçidə Rusiya və Azərbaycan prezidentlərinin görüşü ölkələrimiz arasında münasibətlərin inkişafında olduqca mühüm mərhələdir. Göz qabağındadır ki, iki dövlətin liderləri arasında şəxsi səmimi dostluq münasibətləri bu proseslərə çox güclü impuls verir.

Bu sözləri Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-a müsahibəsində deyib.

O qeyd edib ki, ölkələrimiz arasında əmtəə mübadiləsinin artması xarici iqtisadi qarşılıqlı əlaqələrin inkişafının böyük potensialını nümayiş etdirir. Bu yaxınlarda Xəzərin hüquqi statusu haqqında qəbul edilmiş Konvensiya birgə müəssisələrin yaradılması, birgə layihələrin icrası üçün yeni imkanlar açıb.

**"Siyasi zəmin də çox vacibdir - olduqca mürəkkəb xarici siyasi şəraitdə biləndə ki, böhranlı vəziyyətdə qardaş xalqlar hər zaman çiyin-çiyinə duracaq, onda kollektiv Qərb tərəfdən xarici təzyiqə qarşı müqavimət göstərmək xeyli asan olur. Rusiya ilə Azərbaycan arasında sarsılmaz münasibətlər bütün regionda təhlükəsizliyin əsasıdır. Buna görə də bu məsələ prezidentlərin Soçi görüşündə diqqət mərkəzində idi",** - deyə rusiyalı deputat bildirib.

# Ekspert: Rusiya Azərbaycan üçün regionda iqtisadi layihələrin reallaşdırılması baxımından strateji müttəfiqlərdən biridir

Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri Rusiya-Azərbaycan münasibətlərində strateji müttəfiqlik baxımından yeni mərhələnin başlanması kimi xarakterizə olunur. İmzalanan sənədlərdə nəzərdə tutulan fəaliyyətlər, bu fəaliyyətlərə uyğun müəyyənləşdirilmiş prioritetlər, eləcə də strateji əməkdaşlığın gücləndirilməsi ilə bağlı addımlar onu deməyə əsas verir ki, Rusiya ilə həm dövlətlərarası, həm də şirkətlərarası münasibətlər növbəti dövrdə daha da inkişaf edəcək. Bu, hər iki ölkənin iqtisadi maraqları baxımından çox vacibdir.

Bu sözləri AZƏRTAC-a iqtisadçı ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, səfər çərçivəsində region üçün kifayət qədər əhəmiyyətli sənədlər imzalanıb: **"Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan və Rusiya müstəqil dövlətlər kimi öz milli maraqlarını qoruyaraq bu anlaşmaları imzalayıb. Bu müqavilələr hər iki dövlətin maraqlarına uyğun sənədlərdir. Şimal-Cənub nəqliyyat dəhlizi regionun əhəmiyyətini artıran layihə kimi qiymətləndirilir. Bu dəhlizin reallaşdırılması Rusiyadan başlayaraq yüklərin Hindistana qədər nəql edilməsinə imkan verəcək. Eyni zamanda, gömrük və digər sektorlarda əməkdaşlıq iki ölkənin gələcəkdə strateji müttəfiqliyinin genişləndirilməsinə xidmət edəcək sənədlərdir".**

**"Rusiya iqtisadi baxımdan Azərbaycan üçün strateji müttəfiqlərdən biridir. Nəzərə alsaq ki, Rusiya Azərbaycanın qeyri-neft ixracında əsas tərəfdaşdır. Azərbaycanın 1,5 milyard dollardan çox qeyri-neft ixracının 34 faizi Rusiyanın payına düşür. Bu isə o deməkdir ki, Rusiya ilə Azərbaycan arasında qeyri-neft ixracı təxminən yarım milyard dollardır. Azərbaycanın ixrac etdiyi aqrar məhsulların 90 faizdən çoxu Rusiya bazarına göndərilir. Nəticədə Rusiya qeyri-neft, eləcə də aqrar məhsulların ixracında əsas tərəfdaş rolunu qoruyub saxlamaqdadır. Rusiya Azərbaycan üçün regionda iqtisadi layihələrin reallaşdırılması baxımından strateji müttəfiqlərdən biridir. Azərbaycanın Rusiyada sərmayəsi var. Rusiya Azərbaycan iqtisadiyyatına sərmayə yönəldən ölkələrdən biridir. Dövlət Neft Fondu Rusiya bazarında sərmayə qoyuluşları həyata keçirir",** - deyə V.Bayramov deyib.



Ölkələrimiz arasında münasibətlərin yalnız dövlət səviyyəsində deyil, şirkətlər səviyyəsində də inkişaf etməkdə olduğunu deyən ekspert vurğulayıb: **"Prezidentlərin sonuncu görüşündə SOCAR-la şirkətlərarası müqavilənin imzalanması strateji əməkdaşlığın bütün istiqamətlərdə inkişaf etməsindən xəbər verir. Bu səfər onu göstərir ki, Azərbaycan həm inkişaf etmiş Avropa ölkələri ilə, həm Rusiya ilə bərabər səviyyəli strateji əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Bu əməkdaşlıq Azərbaycanın milli və iqtisadi strateji maraqları çərçivəsində reallaşıb".**

# Liderlərin görüşü: Azərbaycan-Rusiya əlaqələri strateji tərəfdaşlığın məzmununa tamamilə uyğundur



Azərbaycan öz coğrafi mövqeyi, nəqliyyat infrastrukturu, inkişaf etmiş iqtisadiyyatı, rus mədəniyyəti ilə ənənəvi əlaqələri baxımından Rusiya üçün böyük maraq və dəyər kəsb edir. Xüsusən ona görə ki, respublikada rus dili, birgə tarix, iki yüz il ərzində xalqlarımızı birləşdirən nə varsa, hamısı qayğı ilə əhatə olunub və qorunur.

Bu fikri Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik, siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilov AZƏRTAC-a müsahibəsində Azərbaycan və Rusiya prezidentlərinin sentyabrın 1-də Soçidə keçirilmiş görüşünü şərh edərkən söyləyib.

Şübhəsiz ki, yüksək səviyyədə müntəzəm görüşlər dövlətlərarası münasibətlərə dinamizm verir, hər iki dövlətin başçısı öz çıxışlarında iki ölkə arasında əlaqələrin strateji xarakterini vurğulayıb.

Cəlil Xəlilov qeyd edib ki, biznes sahəsindən siyasətə keçən "strateji tərəfdaşlıq" termini iki ölkənin fəaliyyətinin əlaqələndirilməsinin yüksək formasını, siyasi, sosial, mədəni, iqtisadi sahələrdə resursların qarşılıqlı səmərəli kooperasiyasını göstərir. Azərbaycan və Rusiya arasında əlaqələr strateji tərəfdaşlığın ruhuna və məzmununa tamamilə uyğundur.

İqtisadiyyatın və mədəniyyətin bir çox sahələrində Azərbaycanın Rusiya ilə əməkdaşlıq perspektivləri təqdirəlayiqdir. Belə ki, investisiyalar, ticarət əlaqələri, nəqliyyat kommunikasiyaları genişlənir, humanitar və turizm sahəsində əlaqələr dərinləşir. 2017-ci ilin yekunlarına görə, Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiya qeyri-neft sektorunda idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır. Rusiyanın bir çox şirkətləri Azərbaycanda uğurla işləyir. Energetika, maşınqayırma, kimya, əczaçılıq sənayesi sahələrində kooperasiya dərinləşir. Cənubi Asiyanı və Yaxın Şərqi Avropa ilə birləşdirəcək "Şimal-Cənub" qitələrarası nəqliyyat dəhlizinin yaradılması üzrə birgə işlər böyük beynəlxalq əhəmiyyət daşıyır.

Azərbaycanın bilavasitə Rusiyanın regionları ilə fəal əməkdaşlığı diqqət çəkir. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycanla iqtisadi, mədəni əlaqələr saxlayır. Elm, təhsil, ədəbiyyat və incəsənət sahələrində çox geniş əlaqələr mövcuddur.

Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov qeyd edib ki, Azərbaycan Rusiyanın geostrateji maraqlarına anlaşıqlı yanaşır. Rusiya da öz növbəsində, Qarabağ problemi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faiz işğal edilməsi ilə bağlı Azərbaycanın narahatlığını bölüşür.

**"Azərbaycan ictimaiyyəti bu münaqişənin həllində Rusiyanın daha fəal iştirakına ümid bəsləyir. Rusiya öz hərbi müttəfiqi Ermənistana Azərbaycanın işğal edilmiş ərazilərinin boşaldılmasına dair BMT qətnamələrini icra etməklə bağlı birmənalı təsir göstərə bilərdi. Biz bu istiqamətdə Rusiya tərəfdən daha qətiyyətli addımlar gözləyirik",** - deyə siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilov bildirib.

# Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və dostluq münasibətləri uğurla inkişaf edir

*Ekspertlər Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfərinin iki ölkə arasında münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirirlər*



*__Sahibə Qafarova__: Rusiya-Azərbaycan münasibətləri regional əməkdaşlıq və təhlükəsizlik baxımından çox mühüm önəm kəsb edir*



*__Elman Məmmədov__: Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələri əhatə edən uğurlu və səmərəli əməkdaşlıq münasibətləri mövcuddur*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri yerli və beynəlxalq medianın diqqət mərkəzindədir. Ekspertlər bu səfərin iki ölkə arasında müxtəlif sahələri əhatə edən münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirirlər.

Milli Məclisin deputatı, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun üzvü Sahibə Qafarova qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri tərəflər arasında çoxşaxəli münasibətlərin inkişafı kontekstində xüsusi əhəmiyyət kəsb edir. Rusiya ilə Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələrinin bağladığını deyən millət vəkili əlavə edib ki, iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Rusiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın böyük potensialı olduğunu vurğulayan S.Qafarova diqqətə çatdırıb ki, ötən il ölkələr arasında əmtəə dövriyyəsi artıb və müxtəlif sahələri əhatə edən münasibətlər uğurla inkişaf edir: **“Dövlətimizin başçısı mətbuat konfransı zamanı bu məsələlərə toxunaraq “Bu gün müzakirə edilmiş və razılaşdırılmış məsələlər, dəqiq desək, iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə yol xəritələri ölkələrimiz arasında onsuz da dinamizmi ilə fərqlənən əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək. Keçən il əmtəə dövriyyəsinin güclü artımına baxmayaraq, artım bu il də davam edir”, - deyə vurğuladı. Səfər çərçivəsində müxtəlif sənədlərin imzalanması da ayrı-ayrı sahələrdə əməkdaşlığın dərinləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir”.**

Millət vəkili onu da qeyd edib ki, iki ölkə arasındakı münasibətlər tarixi köklərə malikdir. Onun sözlərinə görə, Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və dostluq münasibətləri uğurla inkişaf edir: **“Rusiya-Azərbaycan münasibətləri regional əməkdaşlıq və təhlükəsizlik baxımından çox mühüm önəm kəsb edir. Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində regional təhlükəsizlik, eləcə də Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi müzakirə predmetinə çevrildi. Rusiyanın bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuz olduğunu deyən Prezident İlham Əliyev “Biz ümid edirik ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcək”, - deyə bildirdi. Məlumdur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində ATƏT-in Minsk qrupunun həmsədri olan Rusiya mühüm rol oynayır”.**

Milli Məclisin deputatı Elman Məmmədov isə qeyd edib ki, beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanır.

Onun sözlərinə görə, Azərbaycanın xarici siyasət kursunda Rusiya Federasiyası ilə qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri mühüm yer tutur: **“Azərbaycan ilə Rusiya arasında bir çox sahələri əhatə edən uğurlu və səmərəli əməkdaşlıq münasibətləri mövcuddur. Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri bu münasibətlərin inkişafına xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatı zamanı qeyd etdi ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir”.**

Millət vəkili səfər çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığa dair mühüm sənədlərin imzalandığını diqqətə çatdırıb. İki ölkə arasında iqtisadi sahədə də uğurlu və səmərəli əməkdaşlıq münasibətlərinin mövcud olduğunu deyən E.Məmmədov əlavə edib ki, Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Millət vəkilinin sözlərinə görə, Azərbaycan ilə Rusiya arasında iqtisadi, hərbi-texniki, humanitar və digər sahələrdə əlaqələr dinamik xarakter daşıyır və uğurla inkişaf edir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Bəhruz Quliyev: Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır

**“Region dövlətləri ilə qarşılıqlı maraqlara söykənən, bir çox sahələri əhatə edən və ölkəmizin inkişafına xidmət edən çoxşaxəli əlaqələrin inkişaf etdirilməsi Azərbaycan dövlətinin xarici siyasət konsepsiyasının əsas elementlərindəndir. Bu mənada, regionun və bütövlükdə dünyanın böyük dövlətlərindən biri olan Rusiya ilə mehriban, dostluq münasibətlərinin daim inkişaf etdirilməsinə rəsmi Bakı xüsusi diqqət ayırır”.** Bunu “SƏS” Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.



Bəhruz Quliyev bildirib ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır: **“Son illərdə iki dövlət arasında siyasi, iqtisadi, hərbi-texniki və humanitar sahələrdə əməkdaşlıq nəzərəçarpacaq dərəcədə fəallaşıb. Dövlət başçılarının qarşılıqlı səfərləri isə Azərbaycan-Rusiya münasibətlərinin sürətlənməsinə mühüm impuls verir. Təbii ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası prezidentləri arasında yüksək etimadın mövcudluğu və siyasi dialoqun sıx davam etdirilməsi iki dövlət arasında əlaqələrin inkişafına möhkəm zəmin yaradır. İki dövlətin rəhbərlərinin görüşləri və danışıqları zamanı müəyyən edilən məqsədlər və əməkdaşlıq istiqamətləri müvafiq hökumətlərin, o cümlədən iqtisadi idarəetmə orqanlarının fəaliyyətinin məzmununu təyin edir”.**

**“Prezident İlham Əliyevin sentyabrın 1-də Rusiyaya rəsmi səfəri çərçivəsində Soçidə keçirilmiş görüşlərdə iki ölkə arasında xüsusi əhəmiyyəti ilə seçilən bir sıra müqavilələrin imzalanması da Azərbaycan-Rusiya münasibətlərinin inkişafına yeni dinamizm verəcək”,** - deyən Bəhruz Quliyev əlavə edib ki, əldə edilən razılaşmaların həyata keçirilməsi nəticəsində iki ölkənin əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksələcək.

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri ölkələrimizin münasibətlərini çox yüksək səviyyəyə çatdırdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri ölkələrimizin münasibətlərini çox yüksək qarşılıqlı etimad və faydalı əməkdaşlıq səviyyəsinə çatdırdı.

Rusiyalı məşhur politoloq Pavel Klaçkov bu fikri Azərbaycanın dövlət başçısının sentyabrın 1-də Rusiya Federasiyasına rəsmi səfərinin və Prezident Vladimir Putinlə aparılmış danışıqların yekunlarını AZƏRTAC-a şərh edərkən söyləyib.

Pavel Klaçkov deyib: **“Prezident İlham Əliyevin Rusiyaya səfəri göstərdi ki, ölkələrimiz arasında diplomatik əlaqələr çox yüksək səviyyədədir. Bu qarşılıqlı fəaliyyət həm ikitərəfli münasibətlərin, həm də daha ciddi beynəlxalq problemlərin geniş spektrini əhatə edir. İndi, dünya nizamının formatının dəyişdiyini müşahidə etdiyimiz bir vaxtda hər iki ölkə birgə olmalıdır ki, beynəlxalq siyasətdə bu qeyri-sabitlik dövrünü ən az itki ilə başa vursunlar. Bunun üçün müxtəlif istiqamətlər üzrə, o cümlədən təhlükəsizlik, hərbi və iqtisadi sahələrdə ikitərəfli əməkdaşlığı möhkəmləndirmək lazımdır. Səfər uğurlu keçdi və qarşıya qoyulmuş bütün hədəflərə nail olundu”.**

Ekspert Rusiya ilə Azərbaycan arasında münasibətlərin strateji xarakter daşıdığını vurğulayaraq deyib: **“İki ölkə arasında əlaqələr uzunmüddətli və planlı xarakter daşıyır. Ticarət və neft-qaz sahələrində əməkdaşlığın müsbət nəticələri göz qabağındadır. Biz kənd təsərrüfatı sahəsində əməkdaşlığın vacibliyini də başa düşürük. Rusiya bazarına Azərbaycandan çoxlu kənd təsərrüfatı məhsulları daxil olur.**

**İndi biz səmərəli nəqliyyat modellərini, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin yeni infrastruktur qovşaqlarının yaradılmasını da nizamlamalıyıq. Rusiya üçün Azərbaycanın geosiyasi əhəmiyyəti artır. Biz başa düşürük ki, Hindistana gedib çıxan bu nəqliyyat dəhlizi Rusiya üçün çox vacibdir. Ümumiyyətlə, Azərbaycan ilə Rusiya arasında yaxşı münasibətlər olmasa, bir sıra ölkələrin iqtisadi və təhlükəsizlik problemlərinin həlli mümkün deyil. Cənubi Qafqazda sabitliyin bərqərar edilməsi, burada münaqişəli zonaların olmaması, münasibətlərin kəskinləşməməsi Rusiyanın da maraqlarına uyğundur”.**

Rusiyalı politoloq deyib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi baxımından Rusiya üçün də zəruridir.



Pavel Klaçkov iqtisadi əməkdaşlığın müxtəlif aspektlərinə toxunaraq qeyd edib ki, çoxlu sayda biznes layihələri, xüsusən Taman bərə terminalının tikintisi layihəsi var. Rusiyalı ekspert iqtisadi əlaqələrin genişlənməsində Bakının rolunu vurğulayaraq deyib: **“Burada iki yanaşmanın sintezi müşahidə olunur. Biz təhlükəsizliyi təmin etmək üçün hərbi-texniki əməkdaşlığı inkişaf etdiririk. Qarşılıqlı etimadın müəyyən səviyyəsinə çatandan sonra isə iqtisadiyyatı inkişaf etdiririk. Rusiya hesab edir ki, burada ardıcıl irəliləmək üçün çox böyük perspektivlər, geniş imkanlar var. Ölkələrimiz iqtisadiyyatın bir sıra sahələrində, o cümlədən nəqliyyat sahəsində əməkdaşlığı addım-addım genişləndirir, hərtərəfli düşünülmüş tədbirlər həyata keçirirlər”.**

# Vaqif Mustafayev: Azərbaycan-Rusiya humanitar əməkdaşlığı xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 1-də Rusiya Federasiyasına rəsmi səfəri ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən humanitar sahədə münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu sözləri “Space” telekanalının rəhbəri, görkəmli kinorejissor, Xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı, “Şərəf” ordenli Vaqif Mustafayev AZƏRTAC-a açıqlamasında deyib.

Vaqif Mustafayev bildirib ki, Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşündə humanitar sahədə əlaqələrin genişləndirilməsi məsələsi əsas müzakirə mövzularından biri olub. Dövlətimizin başçısının mətbuata bəyanatında bildirdiyi kimi, Azərbaycanda rus mədəniyyətinə, rus dilinə, əsrlər boyu xalqlarımızı birləşdirmiş və bu gün də birləşdirən nə varsa, hamısına çox qayğı ilə yanaşılır.

Xalq artisti əminliklə bildirib ki, mədəniyyət sahəsində qurulan və genişləndirilən əməkdaşlıq əlaqələri xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. Bu yaxınlarda “Oskar” mükafatı laureatı, Rusiya Kinematoqrafçılar İttifaqının sədri, kinorejissor Nikita Mixalkovun ona ünvanlandığı məktubu xatırladan Vaqif Mustafayev həmin məktubun qonşu ölkələrimiz arasındakı dostluq əlaqələrinin bariz nümunəsi olduğunu vurğulayıb. Nikita Mixalkovun Vaqif Mustafayeva ünvanlandığı məktubda deyilir: **“Siz hələ Moskvada Ali Ssenaristlər və Rejissorlar kurslarının müdavimi olarkən özünəməxsus kinematoqrafik dəstxətiniz və həyata orijinal ironik baxışınızla hamını heyrətləndirirdiniz. Sonra film ardınca film, uğur ardınca uğur... Beləcə, Sizin sənədli, komik və ciddi kinoəsərlərinizin dünya ekranlarına zəfər yürüşü başlandı. Hər biri istedadlı müəllifin yüksək ustalığı ilə seçilən “Yaramaz”, “Hər şey yaxşılığa doğru”, “Milli bomba”, “Bir həsədin tarixi” filmləri keçmiş SSRİ-də, Rusiya Federasiyasında, yaxın və uzaq xarici ölkələrdə keçirilən kinofestivallarda ali mükafatlara layiq görüldü. Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyev haqqında sonuncu bədii film isə bu ekran əsərinə tamaşa etmiş kinematoqrafçıların ümumi rəyinə görə, heç şübhəsiz, kinematoqrafın yaradıcılığında mühüm hadisədir.**



**Rusiya kinematoqrafçıları Sizi yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə bütün təşəbbüslərinizdə yeni-yeni uğurlar, cansağlığı və firavanlıq arzulayırlar”.**

Vaqif Mustafayev qeyd edib ki, bu məktubda ifadə olunan fikirlər Azərbaycan kino sənətinə verilən yüksək qiymətdir.

# Vügar Rəhimzadə: Azərbaycan və Rusiya arasında əldə olunan razılaşmalar uğurlu əməkdaşlıq üçün yeni imkanlar açır

Azərbaycan və Rusiya arasında əldə olunan razılaşmalar uğurlu əməkdaşlıq üçün yeni imkanlar açır.

Bunu Trend-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə qeyd edib ki, Azərbaycanın xarici siyasət prioritetləri sırasında qonşu ölkələrlə qarşılıqlı faydalı münasibətlərin qurulması xüsusi yer tutur: **“Bu mənada ölkəmizin Rusiya ilə uzun illərdir mövcud olan və daha da möhkəmlənən, inkişaf edən əlaqələrini vurğulamaq lazımdır. Azərbaycanla Rusiyanı dostluq və əməkdaşlıq ənənələri bağlayır. Ölkələrimiz arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Rusiya Azərbaycanın tarixi dostu və tərəfdaşıdır. Bu günlərdə möhtərəm Prezidentimiz İlham Əliyevin Rusiyaya rəsmi səfəri zamanı hər iki dövlət başçısının bəyanatlarında bu mühüm məqamlar xüsusi olaraq vurğulanıb, prezidentlərin iştirakı ilə gələcək əlaqələrin daha da möhkəmləndirilməsinə hesablanan sənədlər imzalanıb”.**



Ekspert deyib ki, ölkələrimiz arasında əldə olunan razılaşmalar, imzalanan sənədlər uğurlu əməkdaşlıq üçün yeni imkanlar açır: **“Rusiya və Azərbaycan hökumətləri arasında 2024-cü ilə qədər əməkdaşlıq proqramı, Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətlərinin inkişafı üzrə fəaliyyət planı, bununla yanaşı, turizm, idman, rəqəmsal nəqliyyat sistemləri, malların hava nəqliyyatı ilə daşınması üçün gömrük hüquqpozmalarına qarşı mübarizə, Azərbaycanda “QAZ” kommersiya avtomobillərinin yığım istehsalının inkişafı, neft-qaz, eləcə də digər mühüm sahələri əhatə edən sənədlərin imzalanmasını məxsusi olaraq qeyd etmək lazımdır. Bununla ölkələrimiz arasında iqtisadi əməkdaşlığa dair yol xəritələrinə uyğun əmtəə dövriyyəsi daha da artacaq. Birgə nəqliyyat layihələri çoxsaylı ölkələri əhatə edəcək, tranzit imkanları artacaq, minlərlə yeni iş yeri açılacaq. Göründüyü kimi, möhtərəm Prezidentimizin Rusiyaya budəfəki rəsmi səfəri də kifayət qədər mühüm məqamlarla zəngindir və böyük əhəmiyyətə malikdir”.**

Baş redaktor əlavə edib ki, bu gün ölkələrimiz arasındakı münasibətlərdə xüsusi dinamizm müşahidə edilir: **“Ölkələrimiz arasında tamdəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri var. Mehriban dostlar və qonşular arasında münasibətlər belə də olmalıdır”, - deyən möhtərəm Prezidentimiz İlham Əliyev vurğulayıb ki, Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır, qeyri-neft sahəsi ixracatçılarımız üçün birinci yerdədir. Doğrudan da Azərbaycan-Rusiya iqtisadi əlaqələri çox fəaldır. Rusiya Prezidentinin səsləndirdiyi fikirlər, açıqladığı rəqəmlər bir daha bunu sübut edir. Ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsi 2,5 milyard dollara çatıb. Rusiyanın ölkəmizə birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib. Bizim bazarımızda təxminən 700 birgə müəssisə var və onlardan da 1/3-i 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib. Bütün bunlarla yanaşı, neft-qaz sahəsində də əməkdaşlığımız uğurla davam edir”.**

V.Rəhimzadə vurğulayıb ki, səfər zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında fikir mübadiləsi aparılıb: **“Möhtərəm Prezidentimiz ümidvar olduğunu bildirib ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcək. Öz növbəsində, Vladimir Putin ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiyanın bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcəyini qeyd edib”.**

# Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri bütövlükdə region üçün tarixi əhəmiyyət kəsb edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 1-də Rusiya Federasiyasına səfəri zəngin proqramı, Azərbaycan və Rusiya prezidentlərinin görüşlərində müzakirə olunan məsələlərin geniş spektri iki dövlət arasında münasibətlərin inkişafı üçün yeni və daha dinamik bir dönəmin başlandığını nümayiş etdirir.

Azərbaycan və Rusiya prezidentlərinin mətbuata bəyanatları da sübut edir ki, hər iki dövlətin başçısı münasibətlərin inkişafında, əməkdaşlığın ölkə həyatının bütün istiqamətləri üzrə genişləndirilməsində qərarlıdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli bildirib.

O qeyd edib ki, Prezident İlham Əliyevin rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin etimadlılıq səviyyəsinin yüksəldilməsi, qarşılıqlı faydalılıq müstəvisində inkişaf etdirilməsi baxımından da müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan Prezidentinin səfərinin uğurlu nəticəsini müəyyənləşdirən amillərdən biri də şübhəsiz ki, iki ölkə arasında imzalanan sənədlərin qarşılıqlı əməkdaşlığın bütün istiqamətlərini əhatə etməsidir.

Siyasi ekspert bildirib ki, bu sırada Rusiya Federasiyası və Azərbaycan Respublikası hökumətləri arasında imzalanan 2024-cü ilə qədər Əməkdaşlıq Proqramını və Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planını - “Yol xəritəsi”ni xüsusi qeyd etmək olar. Hər iki sənəd Azərbaycan-Rusiya əməkdaşlığının konseptual platformada, ardıcıl, dövlətlərin maraqlarına uyğun bir formada davam etdiriləcəyini, Azərbaycan-Rusiya münasibətlərinin tamamilə yeni və daha sıx əməkdaşlıq müstəvisinə qədəm qoyduğunu göstərir.

**“Azərbaycan və Rusiya zəngin enerji resurslarına sahib olan ölkələrdir. Bu baxımdan, iki ölkə arasında enerji sektorunda əməkdaşlığın inkişafı ilə bağlı imzalanan sənədlər də təbii qəbul olunmalıdır. Bununla yanaşı, Azərbaycan ilə Rusiya arasında imzalanan sənədlərin hər iki ölkə üçün mühüm strateji əhəmiyyət kəsb edən istiqamətlərinə də diqqət çəkmək vacibdir”**, - deyə Elçin Mirzəbəyli bildirib.

Ekspert qeyd edib ki, Azərbaycan Prezidenti milli iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı ilə bağlı yol xəritələrini təsdiq edib və bu istiqamətdə ölkəmizdə genişmiqyaslı islahatlar həyata keçirilir. Qeyri-neft sektorunun inkişafı Azərbaycanla yanaşı, Rusiya üçün də mühüm əhəmiyyət kəsb edir. Bu müstəvidən yanaşanda imzalanan sənədlər arasında yer alan “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlığın inkişafı haqqında Saziş”in, “Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında rəqəmsal nəqliyyat sistemləri sahəsində əməkdaşlıq haqqında Memorandum”un, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Saziş”in, “Kiçik və orta sahibkarlığın inkişafı üzrə Federal Korporasiya” Səhmdar Cəmiyyəti ilə “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi” Publik Hüquqi Şəxs arasında qarşılıqlı anlaşma haqqında Memorandum çərçivəsində tədbirlərin reallaşdırılması üzrə Yol Xəritəsi”nin hər iki ölkə üçün qeyri-neft sektorunun inkişafı baxımından müstəsna əhəmiyyət daşıdığını deyə bilərik. Sənaye, nəqliyyat sektoru, turizm qeyri-enerji sektorunun bünövrəsini təşkil edir. Eyni zamanda, Azərbaycanın əlverişli geostrateji mövqeyi, nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşməsi hər iki ölkənin bu resurs və imkanlardan daha səmərəli şəkildə faydalanmasına şərait yaradır. Bu isə öz növbəsində yeni iş yerlərinin açılması, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi deməkdir.

Azərbaycan Prezidentinin Rusiyaya bu səfəri beynəlxalq birlik tərəfindən tanınmış ərazilərimizin işğaldan azad edilməsi prosesinə də ciddi təkan verəcək. BMT Təhlükəsizlik Şurasının daimi üzvü, ATƏT-in Minsk qrupunun həmsədri olan Rusiyanın bu prosesdə mühüm rola malik olduğu kimsəyə sirr deyil. Rusiya Prezidenti Vladimir Putinin öz bəyanatlarında ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcəyini bildirməsi, Azərbaycanın artan önəminə və regionda davamlı sabitliyin qorunmasına, təhlükəsizliyin təmin edilməsinə diqqət çəkməsi də rəsmi Moskvanın bu istiqamətdə fəallığını nəzərəçarpacaq dərəcədə artıracağından xəbər verir.

Ən vacibi odur ki, Azərbaycan Prezidentinin Rusiyaya səfəri və əldə olunan nəticələr təkcə iki ölkə üçün deyil, bütövlükdə region üçün tarixi əhəmiyyət kəsb edir.

# İsmayıllının Xəlilli kəndində yeni uşaq bağçası istifadəyə verilib



“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq, İsmayıllı rayonunun Xəlilli kəndində dövlət investisiya qoyuluşu hesabına 40 yerlik yeni uşaq bağçası istifadəyə verilib. “Aqrartikinti” ASC-nin İsmayıllı filialı tərəfindən tikilən bina məktəbəqədər tərbiyə müəssisəsi üçün zəruri olan bütün tələblərə cavab verir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, kənddə uşaq bağçasının təntənəli açılışı olub. Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov açılış mərasimində çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsmayıllıya səfərindən, sosial-iqtisadi, təhsil və mədəniyyət sahələrinin inkişafı, yeni infrastruktur layihələrinin həyata keçirilməsi ilə əlaqədar qarşıya qoyduğu vəzifələrdən danışıb, valideynləri, təhsil işçilərini, kənd sakinlərini uşaq bağçasının açılışı münasibətilə təbrik edib.

Xəlilli kəndinin ağsaqqalı Vaqif Məmmədov, tam orta məktəbin direktoru Şakir Müseyibov və başqaları çıxış edərək, diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıq ediblər.

Açılış mərasimində uşaqlar Azərbaycana həsr olunan şeirlər söyləyiblər.

Sonra yeni uşaq bağçasına baxış olub.

# Prezident İlham Əliyevin Şamaxıya səfəri ilə əlaqədar rayon fəallarının yığıncağı keçirilib



Prezident İlham Əliyevin Şamaxıya tarixi səfəri zamanı rayonun sosial-iqtisadi həyatı üçün mühüm əhəmiyyətə malik olan istehsal və xidmət obyektlərinin açılışı, səfərdən sonra imzaladığı sərəncamlar rayon ictimaiyyəti tərəfindən böyük minnətdarlıqla qarşılanıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər Prezident İlham Əliyevin Şamaxıya son səfəri zamanı verdiyi tövsiyə və tapşırıqlardan irəli gələn vəzifələrə həsr edilən fəallar yığıncağında səsləndirilib.

Yığıncaqda çıxış edən rayon icra hakimiyyətinin başçısı Asif Ağayev Prezident İlham Əliyevin Şamaxıya tarixi səfərinin yekunları barədə danışıb, bu səfərin rayonun sosial-iqtisadi, ictimai-mədəni həyatında mühüm hadisə olduğunu vurğulayıb. İcra hakimiyyətinin başçısı Prezidentin səfər zamanı verdiyi tapşırıq və tövsiyələri, imzaladığı sərəncamları diqqətə çatdıraraq, bununla əlaqədar qısa müddətdə müxtəlif istiqamətlər üzrə hazırlanan fəaliyyət proqramlarından və planlardan söz açıb. Qeyd edib ki, artıq bir sıra kəndlərə qaz xəttinin çəkilişi, istehsal, sosial və təhsil obyektlərinin, yolların tikintisi ilə bağlı ilkin layihə işlərinə başlanılıb.

Fəallar yığıncağında qeyd olunub ki, avqustun 25-26-da Şamaxıya səfəri zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir sıra obyektlərin, o cümlədən Meysəri kəndində tam orta məktəb üçün yeni binanın, “Şirvan şərabları” MMC-nin üzümçülük və şərabçılıq kompleksinin, Dəmirçi kəndində arxeologiya muzeyinin və yeni Dəmirçi-Lahıc avtomobil yolunun açılışlarında iştirak edib, “Şirvan şərabları” MMC-nin kollektivi ilə görüşüb.

Bildirilib ki, dövlətimizin başçısının Şamaxı şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, “ASAN xidmət” mərkəzinin və rayonun Çuxuryurd-Sis-Qaleybuğurd-Keçmədin-Qaladərəsi avtomobil yolunun tikintisi ilə bağlı avqustun 27-də imzaladığı sərəncamlar Şamaxıda sosial-iqtisadi infrastrukturun möhkəmləndirilməsinə güclü təkan verəcək.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Hüseynov, rayonun Dəmirçi bələdiyyəsinin sədri Kərəm Şükürov, Meysəri kənd tam orta məktəbinin direktoru Emil Sayılov, Qaleybuğurd bələdiyyəsinin sədri Qahir Sadıqov və rayon icra hakimiyyəti başçısının Mərzəndiyə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Səfa Səmədov fəallar yığıncağında çıxış edərək, Prezident İlham Əliyevin səfərinin rayon həyatı üçün əlamətdar olduğunu, dövlətimizin başçısının Şamaxı ilə bağlı imzaladığı sərəncamların, tapşırıq və tövsiyələrinin bölgənin inkişafına güclü təkan verəcəyini söyləyiblər.

Yığıncaqda müzakirə olunan məsələ ilə əlaqədar hazırlanan fəaliyyət istiqamətləri geniş müzakirə olunub, bununla əlaqədar hazırlanan proqram və tədbirlər planı təsdiqlənib.

Fəallar yığıncağının iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul ediblər.

# “TURAZ Şahini-2018” birgə taktiki-uçuş təlimləri başlayıb







Azərbaycan ilə Türkiyə arasında illik hərbi əməkdaşlıq haqqında plana əsasən, Konya şəhərində iki ölkənin Hərbi Hava Qüvvələrinin cəlb olunduğu birgə taktiki-uçuş təlimləri başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı qüvvələri arasında təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin Hərbi Hava Qüvvələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Təlimlərdə iştirak edən Azərbaycan Hərbi Hava Qüvvələrinin 2 “MiQ-29” qırıcı, 3 “Su-25” hücum təyyarə və şəxsi heyət Konyada yerləşən aviabazada təntənəli şəkildə qarşılanıb.

Qarşılanma mərasimində çıxış edənlər keçirilən birgə taktiki-uçuş təlimlərində iştirak edən hər kəsə uğurlar arzulayıblar və qurban kəsilib.

Təlimlər sentyabrın 14-dək davam edəcək.

# Azərbaycan hava hücumundan müdafiə qoşunlarının taktiki-xüsusi məşğələləri keçirilir



Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2018-ci ilin döyüş hazırlığı planına uyğun olaraq hava hücumundan müdafiə qoşunlarının taktiki-xüsusi məşğələləri keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məşğələlər zamanı S-300 “Favorit” zenit-raket komplekslərinin divizionları mövqe rayonlarına marş edərək start mövqelərinə yerdəyişmə, ərazinin hazırlanması və maskalanması tapşırıqlarını icra edirlər.

Raket bölmələri vacib obyektlərin hava hücumundan mühafizəsi, habelə şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqları da yerinə yetirirlər.

# Paytaxtda qanunsuz tikililər və küçə ticarəti ilə mübarizə işləri davam etdirilir



Xəbər verildiyi kimi Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən şəhərin rayonlarında ayrı-ayrı sahibkarlar, vətəndaşlar, bəzi iş adamları tərəfindən səkilərin və hərəkət yollarının üzərində, yaşayış binalarına bitişik yerlərdə, yaşıllıq zolaqlarında, məhəllələrdə vətəndaşların istirahəti üçün nəzərdə tutulmuş yerlərin, keçid meydançalarının qeyri-qanuni olaraq zəbt olunmaqla burada inşa olunmuş müxtəlif təyinatlı tikili və obyektlərin sökülməsi, zəbt olunmuş torpaq sahələrinin, yaşıllıqların hasarlarının sökülərək ərazilərin təmizlənməsi, obyektlərin qarşısına yığılmış malların, səyyar reklam şitlərinin yığışdırılması, binaların fasadlarının estetik görünüşünə xələl gətirən paltar ipləri və xarici dildə yazılan yöndəmsiz reklamların çıxarılması ilə bağlı işlər aparılır.

Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən başlanan işlər yerlərdə də keçirilir. Belə ki, artıq 2 gündür Xətai rayonunda bu abadlıq işləri Bakı Şəhər İcra Hakimiyyəti və Xətai Rayon İcra Hakimiyyəti ilə birgə aparılır.

Görülən tədbirlər nəticəsində Məhəmməd Hadi küçəsində, “Əhmədli” və “Həzi Aslanov” metro stansiyalarının yaxınlıqlarında yaşıllıqların olduğu 4 ədəd torpaq sahəsinin hasarları sökülüb və ərazi təmizlənib.

Həmçinin meriyada təşkil olunmuş komissiya tərəfindən bu ərazilərdə tikilən bir sıra müxtəlif təyinatlı obyektlərin sənədləri araşdırılır. Araşdırmalar nəticəsində müəyyən olunmuş pozuntuların aradan qaldırılması və lazım gələrsə tikililərin sökülməsi üçün müvafiq qaydada məhkəməyə müraciət olunacaq.

Əsas məqsədi paytaxtın daha da gözəlləşdirilməsi, sakinlərin sosial şəraitinin yaxşılaşdırılması, vətəndaşların istirahətinin səmərəli təşkili, onları narahat edən amillərin aradan qaldırılması olan bu tədbirlər paytaxtın digər rayonlarında da davam etdirilir.

# Naxçıvanda peşə kurslarına məhkumlar da cəlb olunur





Payız-qış aylarında qazanxanaların ixtisaslı kadrlarla təmin olunması məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti peşəsi üzrə hazırlıq kursuna başlanılıb.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, ixtisaslı mütəxəssislər tərəfindən tədris olunan kursa 20 müdavim cəlb edilib. Kursun müddəti 1 ay olacaq. Müvafiq peşə üzrə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində də kurs təşkil edilib. Hazırda həmin peşə kursunda 13 məhkum təhsil alır.

Naxçıvan şəhərində yaradılacaq xalça istehsalı emalatxanasının kadr təminatı da diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Regional Peşə Tədris Mərkəzində xalçaçılıq sənəti üzrə tədris-hazırlıq kursu da davam etdirilir. “Azərxalça” Açıq Səhmdar Cəmiyyətindən dəvət olunan mütəxəssislərin iştirakı ilə keçirilən kursa 58 müdavim cəlb edilib. Onlardan 25-i tədris proqramını artıq tam mənimsəyib.

Kursun sonunda iştirakçılara “Azərxalça” tərəfindən sertifikatlar veriləcək və həmin toxucular xalça istehsalı emalatxanasında işlə təmin olunacaqlar.

# Nikol Paşinyan Ermənistanı fəlakətə sürükləyir

*Rusiya ilə münasibətlərin gərginləşməsi, ölkədaxili durumun acınacaqlı olması və ekstremistlərin baş qaldırması buna dəlalət edir*



İşğalçı Ermənistanda rəhbərliyi ələ keçirən Nikol Paşinyanın daxildə olduğu kimi, xarici siyasətdəki səriştəsizliyi yerli və xarici medianın gündəmindədir. Xüsusilə Rusiya ilə münasibətlərinin gərginləşməsinə ekspertlər daha çox diqqət yetirirlər. Belə ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibinin həbsi ilə gərginləşən münasibətlərin normallaşması üçün elə bir ciddi addım atılmayıb. Əksinə, yeni hökumətin həbsdən azad etdiyi ekstremist-terrorçu şəxslərin Rusiya hərbi bazasının çıxarılması kimi hərbi-siyasi bəyanatlar verməsi vəziyyəti bir qədər də qəlizləşdirib.

Bu günlərdə Apelyasiya Məhkəməsinin KTMT baş katibi Yuri Xaçaturovun şikayətini rədd etməsi də Ermənistan-Rusiya münasibətlərinin gərginləşməsində yeni hökumətin maraqlı olduğunun göstəricisidir. Bu azmış kimi, onsuz da Rusiya ilə mürəkkəb münasibətlərin fonunda rəsmi İrəvanın digər ölkələrdən silah almağa çalışması, Hindistan mətbuatının Ermənistanın bu ölkədən silah almaq niyyəti barədə yazması, əlaqədar orqanların isə məlumatları təsdiqləməsi bu məsələnin ciddiliyindən xəbər verir.

Məsələ ilə bağlı “moscow-baku.ru” saytına münasibət bildirən hərbi analitik Pavel Felgenhauer deyib ki, Rusiya-Ermənistan münasibətlərindəki gərgin vəziyyət Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişafına səbəb ola bilər. Qeyd olunan məsələ barədə fikirlərə eyni səpkidə münasibət sərgiləyən Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin bildirib ki, bu kontekstdə Azərbaycan daha çox Rusiya ilə strateji müttəfiqliyin gücləndirilməsinə hazır olduğunu nümayiş etdirir. Ermənistanda son günlər baş verən ictimai-siyasi hadisələrə münasibət bildirən A.Duqin “vəziyyətin fəlakətli bir ssenari üzrə inkişaf edə və nəzarətdən çıxa biləcəyini” də istisna etməyib. Onun sözlərinə görə, gözlənilməz olan vəziyyətə geosiyasi amillər də əlavə oluna bilər.

Faşist və anti-Rusiya meyilli qüvvələrin baş qaldırdığına eyham vuran ekspertlər Ermənistanda “Sasuna tsrer” kimi silahlı mübarizə aparan ekstremist qüvvələrin partiya formalaşdırması ideyasının indiki münbit şəraitdə daha fəal olan “Soros” və Qərbin digər fondlarının layihəsi olduğunu söyləyirlər. Həmin terrorçuların siyasi fəaliyyətə başladıqlarını elan etdikləri gün Rusiyaya qarşı bəyanat yaymaları, Ermənistanın sərhədlərini qoruyan rus hərbçilərini əvəz etmək fikrinə düşmələri də bunu sübut edir. Daxildə olduğu kimi, xaricdə, o cümlədən Rusiya mətbuatında da bu çağırışlara kəskin münasibət bildirilir. Məsələn, “kubnews.ru” saytında yer alan yazıda “Soros”la bağlı olanların “Facebook”un erməni seqmentində yaratdığı səhifələrdə Rusiyanın 102-ci hərbi bazasının ölkənin maraqlarını təmin etməməsi və respublika ərazisindən çıxarılması, Rusiya telekanallarının yayımının dayandırılması tələblərinin səbəbi araşdırılır. Saytda yer alan yazıda bu qaralama kampaniyasında 2015-ci ildə erməni ailəsini güllələyən rus sərhədçisi Valeri Permyakovun adının hallandırılması, Panik kəndindəki insidentdən dərhal sonra Ermənistanın müdafiə naziri D.Tonoyanın Rusiya sərhədçilərinin statusuna yenidən baxmağa çağırması xatırladılır.

Ümumiyyətlə, Ermənistanda Rusiya ilə münasibətlərin möhkəmləndirilməsindən daha çox anti-Rusiya kampaniyası aparılması Rusiya KİV-də geniş təhlil olunur. Məsələn, “gradator.ru” saytında yer alan “Rusiyanı qovmaq üçün “Sasuna tsrer” ekstremistləri Paşinyana kömək edəcəklər” sərlövhəli yazıda qeyd olunur ki, Ermənistanın yeni rəhbərliyi bu cür ekstremist əhval-ruhiyyəli radikal qrupları siyasi meydanda gərginlik yaratmaq üçün azadlığa buraxıb. Halbuki onların mübarizə metodları yaxşı heç nə vəd etmir. Məsələn, bu ekstremistlərin liderlərindən biri Jirayr Səfilyanın tərcümeyi-halı buna sübutdur. Belə ki, Livanda doğulmuş və bu ölkənin vətəndaşlığını saxlayan J.Səfilyan Beyrutda vətəndaş müharibəsi zamanı küçə döyüşlərinin fəal iştirakçısı olub, daha sonra Dağlıq Qarabağa gəlib və batalyon komandiri kimi Azərbaycan xalqına qarşı cinayətlərdə iştirak edib.

Yeri gəlmişkən, yuxarıda qeyd edilənləri və hakimiyyətdə olduğu 100 gün müddətində N.Paşinyanın buraxdığı ciddi səhvləri sadalayan parlamentin deputatları Karen Bekaryan, Miqran Hakopyan, Arman Saqatelyan və Samvel Fərmanyanın qələmə aldığı və “aravot.am” saytında yer alan “Açıq şəkildə fəlakətə doğru” sərlövhəli yazıda Ermənistanın düşdüyü vəziyyətin acınacaqlı olduğu etiraf edilir.

Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, N.Paşinyanın apardığı siyasət Ermənistanı fəlakətə sürükləyir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

# Regionlarda əhalinin elektrik enerjisi ilə təmin olunması işləri uğurla davam edir

*Bu istiqamətdə həyata keçirilən tədbirlər vətəndaşların sosial rifah halının yüksəldilməsində də mühüm rola malikdir*









Ölkəmizdə son 15 ildə həyata keçirilən siyasət, reallaşdırılan islahatlar bütün sahələrin inkişafını təmin edib. Heç şübhəsiz, bu fonda bölgələrin hərtərəfli inkişafı xüsusi olaraq önə çəkilməlidir. Məlum olduğu kimi, qəbul edilmiş Dövlət proqramları sayəsində regionların inkişaf dinamikası əldə etməsi, abadlıq-quruculuq işlərinin görülməsi, yeni infrastrukturun qurulması bölgələrin simasını dəyişməkdədir. İnfrastrukturdan söz düşmüşkən vurğulayaq ki, bu gün ölkəmizdə bütün bölgələrdə fasiləsiz elektrik enerjisi ilə təminat vətəndaşların sosial rifahının yüksəldilməsində mühüm rola malikdir. Bu səbəbdəndir ki, regionlarımızda istər elektrik enerjisinin təminatı, istərsə də digər kommunikasiya və xidmət sahələrinin yüksək səviyyəyə çatması istiqamətində işlər davamlı xarakter daşıyır. Məhz həyata keçirilən siyasət nəticəsində bu gün bölgələrimizdə elektrik təminatı daha da təkmilləşir. Ölkədə bu istiqamətdə işlərin həyata keçirilməsi üçün dövlət tərəfindən yüksək maliyyə dəstəyi göstərilir.

Ölkənin regionlarının elektrik enerjisi ilə təminatında “Azərişıq” ASC-nin fəaliyyəti xüsusi qeyd edilməlidir. Qeyd edək ki, “Azərişıq” ASC də vətəndaşların fasiləsiz və keyfiyyətli elektrik enerjisi alması üçün bütün gücünü səfərbər edir. Vətəndaşlara keyfiyyətli xidmət etmək bu qurumda da əsas prioritetlərdən sayılır. Vurğulayaq ki, “Azərişıq” ASC-nin abonentlərə göstərdiyi xidmətlərin bütün regionlardakı “ASAN xidmət” mərkəzlərini əhatə etməsi, eyni zamanda, 2018-ci il ərzində əlavə üç xidmətin yaradılaraq xidmətlərin sayının 13-ə çatdırılması səhmdar cəmiyyətə daxil olan müraciətlərin sayında da artıma səbəb olub. “Azərişıq” ASC-nin göstərdiyi 13 xidmət arasında xüsusi əhəmiyyət daşıyan 150 kVt-a qədər sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün 245 sahibkar, evinə, bağına və ya həyətinə işıq çəkdirmək üçün isə 4240 vətəndaş müraciət edib.

Beləliklə, regionlarda da vətəndaşların fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təminatı istiqamətində mühüm addımlar atılır. Vurğuladığımız kimi, dinamik inkişafa malik Azərbaycan dövlətində aparılan düşünülmüş siyasət bütün sahələrin paralel inkişafını təmin edib. 2004-cü ildən həyata keçirilən və hazırda üçüncü mərhələsi icra olunan Dövlət proqramları sayəsində regionların inkişaf dinamikası əldə etməsi, yüksək abadlıq-quruculuq işlərinin görülməsi, yeni infrastrukturun qurulması bölgələrin simasını da dəyişməkdədir. Bu gün regionlarımızda elektrik enerjisi ilə təminat yüksək səviyyədədir. Hətta ucqar kəndlərdə belə fasiləsiz elektrik təminatı həyata keçirilir.

Son 15 ildə regionlarda çoxlu sayda yeni generasiya obyektlərinin istifadəyə verilməsi ölkəmizdə müasir infrastruktur quruculuğuna yaxşı nümunədir. Qeyd edək ki, 2004-cü ilə qədər Azərbaycanda cəmi 9 elektrik stansiyası mövcud idi və onların ümumi potensialı 3900 meqavata bərabər idi. Bəhs olunan dövrdə isə respublikamız məqsədyönlü investisiya qoyuluşu sayəsində 30 elektrik stansiyası tikməyə nail olub.

Ümumiyyətlə, “Azərişıq” ASC 2018-ci ilin 6 ayı ərzində qarşıya qoyulan bütün tapşırıqları artıqlaması ilə yerinə yetirib. Respublikanın bütün istehlakçılarının keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz olunması üçün ən vacib işlər həyata keçirilib. “Azərişıq” ASC-nin mətbuat xidmətindən verilən məlumata görə, Bakı şəhəri və regionlarda elektrik təchizatının yaxşılaşdırılması üçün yenidənqurma işləri aparılıb. Elektrik enerjisinin keyfiyyətli təminatı üçün 6 ay ərzində 192 ədəd komplekt transformator məntəqəsi quraşdırılıb, hava xətləri çəkilib və təmir olunub, müxtəlifgərginlikli dayaqlar quraşdırılıb.

2018-ci il fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevir şəhərinin elektrik paylayıcı şəbəkəsinin Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin, 2018-ci il iyunun 5-də Goranboy rayonunda 110/35/10 kV-luq 2x40 MVA gücündə “Dəliməmmədli” və 110/35/10 kV-luq 2x40 MVA gücündə “Kürəkçay” yarımstansiyalarının açılışında iştirak edib. Mərkəzdə elektrik enerjisinin alış nöqtəsindən istehlak nöqtəsinə qədər bütün mərhələlərdə şəbəkənin idarə olunması, balansın real vaxt rejimində təhlil edilməsi, sayğacların oxunması, yüksək və aşağı gərginlikli şəbəkələrdə fasiləsiz və keyfiyyətli elektrik enerjisinə nəzarətin təmin edilməsi, sərfiyyat göstəricilərinin monitorinqinin aparılması mümkün olacaq.

“Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Prezidentinin 2017-ci il 22 dekabr tarixli 3535 saylı Sərəncamının icrası ilə əlaqədar “Azərişıq” ASC-nin balansına verilmiş Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən Külək Elektrik Stansiyalarında təmir və bərpa işləri aparılır. Stansiyaların istehsal etdiyi elektrik enerjisinin ötürülməsi üçün Yeni Yaşma Külək Elektrik Stansiyasının ərazisində 20/110 kV-luq 2x40 MVA gücündə və 10/35 kV-luq 4 MVA gücündə yarımstansiyalar inşa edilib, 110 kV-luq “4-cü Yaşma” və 35 kV-luq “Yaşma Bağları” hava xətləri ilə əlaqələndirilib.

6 ay ərzində ümumilikdə 135.494 ədəd olmaqla, əhali istehlakçılarına aid 122.602 ədəd, qeyri-əhali istehlakçılarına aid 12892 ədəd uçot dəstləri bərpa olunub. Bundan əlavə, ümumilikdə 100.799 ədəd, o cümlədən əhali istehlakçılarına aid 90.369 ədəd, qeyri-əhali istehlakçılarına aid 2.462 ədəd köhnə elektrik sayğacları yenisi ilə əvəz edilib. Görülmüş işlər nəticəsində istehlakçılara satılan faydalı elektrik enerjisinə görə ümumi yığım səviyyəsi hesabat dövründə 94,6 faizə çatdırılıb.

Hazırda bu yöndə işlər uğurla davam edir. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də İsmayıllı rayonuna səfəri çərçivəsində burada yenidən qurulan 110/35/10 kilovoltluq 2x16 MVA gücə malik “İsmayıllı” yarımstansiyasının açılışında iştirak edib. “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev Prezident İlham Əliyevə müəssisənin fəaliyyəti barədə məlumat verib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə elektroenergetika sahəsində mühüm işlər görülüb. Bu sahədə mövcud çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. İsmayıllı rayonunda da energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchizatı prioritet məsələlərdən olub. İsmayıllı Elektrik Şəbəkəsinin xidməti ərazisində son üç ildə aparılan geniş tikinti, yenidənqurma və bərpa işləri nəticəsində rayonun kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, inkişafda olan turizm, həmçinin kənd təsərrüfatı obyektlərinin elektrik enerjisinə artan tələbatının ödənilməsi üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, üç kəndin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib və hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bununla da İsmayıllı Elektrik Şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər ciddi şəkildə azalıb.

Diqqətə çatdırılıb ki, bu sahədə işlər hazırda da davam etdirilir. Yaxın perspektivdə 110/10 kilovoltluq “Qubaxəlilli” yarımstansiyasının yenidən qurularaq 110/35/10 kilovoltluq gərginlik sinfinə keçirilməsi, 35/10 kilovoltluq “Ağçay” yarımstansiyasının tikilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq “İsmayıllı” yarımstansiyasını işə salıb. Məlumat verilib ki, “İsmayıllı” yarımstansiyası istismar müddətini başa vurduğundan müasir üslubda tamamilə yenidən qurulub. Bu yarımstansiya vasitəsilə İsmayıllı şəhərinin və ətraf 14 yaşayış məntəqəsinin, 35 kilovoltluq Basqal və 35 kilovoltluq İvanovka hava xətlərinin üzərində olan 35/10 kilovoltluq “Girdimançay”, “Zərgəran”, “Yeni Basqal” və “İvanovka” yarımstansiyalarının elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Yarımstansiya elektrontipli rele mühafizəsi və avtomatik sistemlərlə təchiz edilib, məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sisteminə qoşulub. Ümumiyyətlə, 22 min 148 abonentin elektrik enerjisi ilə təmin edilməsi 110/35/10 kilovoltluq “İsmayıllı” yarımstansiyası vasitəsilə yerinə yetirilir.

Bildirilib ki, rayonun Topçu, Buynuz, Sumağallı, Çayqovuşan, İstisu və Qalacıq kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, kənd təsərrüfatının inkişafı ilə bağlı yaradılan obyektlərin elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün 110/35/10 kilovoltluq 10 MVA gücündə “Topçu” yarımstansiyası inşa edilib. Bu yarımstansiyadan çıxan 10 kilovoltluq hava xətləri vasitəsilə təxminən 1200 abonentin elektrik təchizatı həyata keçirilir. Yarımstansiyanın fəaliyyətə başlaması üçün işlər davam etdirilir. İsmayıllı rayonunun Basqal qəsəbəsinin və ətraf kəndlərin elektrik təchizatının yaxşılaşdırılması məqsədilə 35/10 kilovoltluq 2,5 MVA gücündə “Yeni Basqal” yarımstansiyası da inşa edilib və istismara verilib. Yarımstansiyanı qidalandıran 35 kilovoltluq “Basqal” hava xəttinin 2,3 kilometrlik hissəsi əsaslı təmir olunub, 5,5 kilometrlik hissəsi isə yeni çəkilib.

Qeyd olunub ki, İsmayıllı Elektrik Şəbəkəsində 23 min 403 abonent mövcuddur. Onlardan 21 min 382-si əhali, 2021-i isə qeyri-əhali qrupuna aiddir.

Beləliklə, respublikanın bütün istehlakçılarının fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması istiqamətində “Azərişıq” ASC tərəfindən həyata keçirilən tədbirlər davam etdirilir.

**Nardar BAYRAMLI**

# Qida Təhlükəsizliyi Agentliyi yoluxucu heyvan xəstəlikləri ilə bağlı əhaliyə xəbərdarlıq edib

Qida Təhlükəsizliyi Agentliyi (AQTA) başqa ölkələrdən Azərbaycan Respublikası ərazisinə keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə əhaliyə xəbərdarlıq edib.

AQTA informasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumatda deyilir: **“Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı tərəfindən Rusiya Federasiyasının Samara, Kurqan və Çelyabinsk vilayətlərində iribuynuzlu heyvanlar arasında Nodulyar dermatit və Moskva vilayətinin Şaxovskaya rayonunda xırdabuynuzlu heyvanlar arasında çiçək xəstəliklərinin yayılması müəyyən edilib. Bununla əlaqədar olaraq, həmin ölkədən iribuynuzlu və xırdabuynuzlu heyvanların idxalı ilə bağlı müraciət edən hüquqi və fiziki şəxslər Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının müvafiq tələblərini nəzərə almalıdırlar. Eyni zamanda, nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə Rusiya Federasiyasının qeyd olunan vilayətlərindən gələn və ya həmin ərazidən tranzit keçən nəqliyyat vasitələrinin gömrük keçid məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə aidiyyəti üzrə müraciət olunub”.**

# “Bakcell”dən 16 bölgənin sakinlərinə 5Gb PULSUZ 4G interneti

*Bu kampaniya Bakcell abunəçilərinə 4G şəbəkəsini sınaqdan keçirmək və yüksəksürətli internet təcrübəsindən yararlanmaq imkanı verəcək*




Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti ölkənin 16 bölgəsinin sakinlərinə 5 Giqabayt həcmində PULSUZ 4G interneti əldə etmək və telekommunikasiya bazarında ən müasir texnologiya və ən yüksək müştəri təcrübəsindən yararlanmaq fürsəti qazandırır.

İlin əvvəlindən görülmüş genişmiqyaslı işlər və yatırılmış iri həcmli investisiyalar nəticəsində Bakcell özünün 4G şəbəkəsinin əhatə dairəsini əhəmiyyətli dərəcədə genişləndirib. Bakcell şəbəkəsinin üstünlüyünü 4G xidməti ilə əhatə olunmuş bölgələrin əhalisinə əyani şəkildə təqdim etmək məqsədilə 16 şəhər və rayonda - Oğuz, Ağstafa, Şabran, Qazax, Siyəzən, Ucar, Zaqatala, Lənkəran, Salyan, Qax, Qəbələ, Yevlax, Cəlilabad, Şəki, Şirvan və Saatlıda yaşayan abunəçilərə 5 GB həcmində PULSUZ internetdən istifadə etmək imkanı verilib. 1 sentyabr-31 oktyabr tarixləri arasında keçiriləcək bu kampaniyada iştirak etmək üçün abunəçilər sadəcə telefonda *304#YES kodunu yığmalı və cihazın ayarlarında 4G/LTE şəbəkəsini seçməlidirlər.

Kampaniya zamanı təqdim olunan PULSUZ internet trafikindən istifadə etmək fürsəti hər abunəçiyə yalnız bir dəfə verilir.

Kampaniyadan yararlana bilmək üçün abunəçinin mobil cihazı 4G şəbəkəsini dəstəkləməli və 4G SİM-kartla təmin olunmalıdır. Qeyd edək ki, yuxarıda qeyd olunan bölgələrdə yaşayan Bakcell abunəçiləri yaşadıqları əraziyə yaxın olan Bakcell Müştəri Xidməti Mərkəzinə və ya “Bakcell”in diler dükanına yaxınlaşıb öz köhnə SİM kartını yeni 4G SİM-kartı ilə PULSUZ dəyişə bilərlər.

Həmin bölgələrdə yerləşən diler dükanlarının ünvanları aşağıdakı linkdədir: https://www.bakcell.com/az/free_5_gb_internet_on_4g_network

5GB həcmində PULSUZ internet yalnız “Bakcell”in 4G şəbəkəsində 30 gün ərzində istifadə oluna bilər. Həmçinin, hədiyyə 5GB paketi yalnız yuxarıda qeyd olunan rayon və şəhərlərin ərazisində istifadə oluna bilər. Pulsuz trafik başa çatandan sonra abunəçilər Bakcell şirkətinin qiyməti 5 AZN-dən başlayan sərfəli internet paketlərindən birini əldə edib ultra-yüksək sürət və ən yüksək keyfiyyətli müştəri təcrübəsindən yararlanmağa davam edə bilərlər. Təqdim olunan internet paketləri barədə ətraflı məlumat www.bakcell.com səhifəsindən və Bakcell şirkətinin Facebook və İnstagram sosial şəbəkələrindəki rəsmi səfihələrindən əldə oluna bilər.

4G texnologiyası mobil cihaz vasitəsilə həyata keçirilən yükləmə, videozəng, mobil televiziya və ya sosial şəbəkələrdən istifadə kimi əməliyyatların sürətini əhəmiyyətli dərəcədə yüksəltmək üçün yaradılmış dördüncü nəsil simsiz məlumatötürmə şəbəkəsidir. 4G əsasən daha sürətli, rahat və sabit texnologiya deməkdir. Bakcell şirkətinin qurduğu ən müasir 4G şəbəkəsi abunəçilərə öz smatrfonlarının ən maraqlı funksiyalarından tam şəkildə yararlanmaq imkanı verir. 2015-ci ildə Bakcell şirkəti özünün 4G şəbəkəsində ən son texnoloji yenilik olan LTE “Advanced Carrier Aggregation” (tezlik daşıyıcılarının birləşməsi) texnologiyasının tətbiqi sayəsində saniyədə 225 Meqabitə qədər olan sürətin dəstəklənməsini təmin edib.

Bakcell şirkətinin 4G xidməti artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 30-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir. 7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan “P3 Communications” şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb (“Best in Test”).

# Azercell-dən fiziki məhdudiyyətli abunəçilərə xüsusi qayğı

*Şirkətin müştəri xidmətləri mərkəzlərində xüsusi qayğıya ehtiyacı olan vətəndaşlara növbəsiz xidmət göstərilir*



Cəmiyyətimizdə fiziki məhdudiyyətli insanların inteqrasiyasına və sosial reablitasiyasına dəstək olmaq məqsədilə çoxsaylı sosial layihələr reallaşdırmış Azercell Telekom bu sahədə daha bir xeyirxah və innovativ təşəbbüslə çıxış edir. Belə ki, Azercell-in Müştəri Xidmətləri mərkəzlərində əlillər üçün Q-matik aparatında xüsusi növbədənkənar düymə yerləşdirib. Şirkətin B.Bağırova 2 və Tağıyev 26A ünvanında yerləşən Müştəri Xidmətləri mərkəzlərinə müraciət edən xüsusi qayğıya ehtiyacı olan bütün əlil abunəçilər artıq bu imkandan yararlana bilirlər. Məlumat üçün deyək ki, B.Bağırova 2 ünvanında yerləşən ofisdə bu yenilik artıq aprel ayından, Tağıyev 26A ünvanında yerləşən ofisdə isə iyun ayından tətbiq olunur və indiyə qədər 100-dən artıq fiziki məhdudiyyətli abunəçiyə xidmət göstərilib. Şirkət ilin sonuna qədər digər Müştəri Xidmətləri ofislərində də bu xidməti istifadəyə verəcək.

Qeyd edək ki, hazırda dünya əhalisinin təxminən 15 faizini fiziki məhdudiyyətli insanlar təşkil edir. Azərbaycanda isə 6 min nəfərə yaxın əlil, o cümlədən 72 min sağlamlıq imkanları məhdud uşaq qeydə alınıb. Azercell əlil uşaqların reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiya olunmasına yardım göstərmək məqsədilə 2014-cü ildən Uşaq Paralimpiya Komitəsinə dəstək verir. Eyni zamanda Mobil Göz və Mobil Diş Klinikaları vasitəsilə hər ay onlarla əlil vətəndaşlarımız pulsuz müayinə və müalicə edilir. Azercell-in 2013-cü ildə Böyük Vətən, Əfqanistan və Qarabağ müharibəsi iştirakçıları üçün yaratdığı Veteran tarifi isə 40 minə qədər abunəçiyə güzəştli rabitə xidmətindən yararlanmağa imkan verir.

Ölkənin lider mobil operatoru Azercell Telekom öz sosial məsuliyyət strategiyasında insan həyatının keyfiyyətinin artırılması, texnnologiyalar vastəsilə insan həyatının asanlaşdırılması prinsiplərini əsas tutaraq bu sahədə təşəbbüs və layihələrini davam etdirəcək.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Aqşin ŞAHİNOĞLU